№ 30 (973) 27 iyul 2 avqust 2017-ci il

www.iqtisadiyyat.com

İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

İLHAM ƏLİYEV: "ƏMİNƏM KI, BU GÖRÜŞÜMÜZ DƏ DOSTLUQ MÜNASİBƏTLƏRİMİZİN İNKİŞAFINA YAXŞI İMPULS VERƏCƏK"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Rusiya Federasiyasında işgüzar səfərdə olub.

İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Soçidə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşüb.

Azərbaycan Prezidenti İlham Əliyev demişdir:

- Hörmətli Vladimir Vladimiroviç, mən də bizim yeni görüşümüzə çox şadam. Biz mütəmadi olaraq görüşürük. Bu görüşlər çox uğurla davam edən ikitərəfli münasibətlərimizin inkişafına yaxşı impuls verir. Biz münasibətlərimizin səviyyəsindən, yüksək səviyyəsindən məmnunuq. Siyasi, ticari-iqtisadi, humanitar sahələrdə fəal əməkdaşlıq edirik. Nəqliyyat və energetika sahələrində yaxşı perspektivlər var. Yəni, bizim münasibətlərimiz çoxşaxəlidir, həyatımızın praktiki olaraq bütün sahələrini əhatə edir. Əlbəttə ki, vacib məsələlər - regional, dünya siyasəti, ikitərəfli münasibətlər və bizim regionda təhlükəsizliyin möhkəmləndirilməsi məsələləri üzrə vaxtaşırı məsləhətləşmələrə ehtiyac var. Ona görə bir daha Sizi görməyə çox şadam. Əminəm ki, bu görüşümüz də dostluq münasibətlərimizin inkişafına yaxşı impuls verəcək.

Görüşdə dövlət başçıları Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlıq əlaqələrinin mövcudluğunu bir daha təsdiqləmişlər. İkitərəfli münasibətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyini vurğulamışlar. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edilib. Beynəlxalq və regional problematika ətrafında fikir mübadiləsi aparılıb.

Hər iki dövlət başçısı Rusiya-Azərbaycan dostluq və strateji tərəfdaşlıq əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildiriblər.

* * * * *

İyulun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatmışdır.

MADDİ RİFAH, İQTİSADİ İNKİŞAF, SOSİAL İNKİŞAF DEMOKRATİK İNKİŞAF ÜÇÜN ƏSAS ŞƏRTDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də jurnalistlər üçün tikilmiş növbəti binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində iştirak edib.

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli və Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov dövlətimizin başçısına yeni bina barədə ətraflı məlumat verdilər. Bildirildi ki, jurnalistlər üçün inşa edilən ikinci binada 255 mənzil var. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2013-cü il 22 iyul tarixli Sərəncamı ilə tikilən 3 bloklu, 17 mərtəbəli bu binanın ümumi inşaat sahəsi 34 min kvadratmetrdir. Binada 9 bir otaqlı, 144 ikiotaqlı, 93 üçotaqlı və 9 dördotaqlı mənzil var. Binanın həyətində idman meydançası yaradılıb, geniş abadlıq işləri görülüb.

Sonra Prezident İlham Əliyev kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşmüşdür.

Prezident İlham Əliyevin nitqindən:

- Bu gözəl peşə bayramı ərəfəsində biz jurnalistlər üçün tikilmiş yaşayış binasının açılışına toplaşmışıq. Bu, sayca ikinci binadır. Birinci binada artıq neçə ildir ki, jurnalistlər yaşayır. Biz indi də ikinci binanın açılışını qeyd edəcəyik. Birinci binada 156, ikinci binada isə 255 mənzil var və eyni zamanda, bu gün biz üçüncü binanın təməlini qoyacağıq. Üçüncü binada da 255 mənzil nəzərdə tutulur. Beləliklə, qısa müddət ərzində yüzlərlə jurnalistə dövlət tərəfindən mənzil verilir. Bu, dövlət tərəfindən Azərbaycan jurnalistikasına göstərilən növbəti diqqətin təzahürüdür.

Azərbaycan jurnalistikası inkişaf edir və cəmiyyətdə çox müsbət rol oynayır. Azərbaycanda bütün azadlıqlar təmin olunur, o cümlədən söz azadlığı və siz jurnalistlər bunu yaxşı bilirsiniz. Azərbaycanda minlərlə mətbuat orqanı var ki, qeydiyyatdan keçib sərbəst fəaliyyət göstərir. Bu gün Azərbaycan jurnalistikası cəmiyyəti narahat edən problemləri üzə çıxarır, çox dəyərli təhlillər aparır və ümumiyyətlə, ölkəmizin inkişafında çox müsbət rol oynayır.

Mən həmişə çalışmışam və çalışıram ki, jurnalistlərə öz dəstəyimi göstərim. Mənim jurnalistlərlə çoxsaylı görüşlərim, səmimi söhbətlərim bunu göstərir. Xüsusilə jurnalistlər üçün binaların tikilməsi də bu siyasətin bir təzahürüdür. Bu təşəbbüs bir neçə il bundan əvvəl irəli sürülmüşdü, jurnalistlər belə məsələ qaldırmışdılar, mən də buna müsbət reaksiya verdim və nəticə etibarilə artıq biz burada ikinci binanın açılışını qeyd edirik. Xatırlayıram, 4 il bundan əvvəl birinci binanın açılışında mən demişdim ki, yəqin gələcəkdə bu əraziyə "Jurnalistlər şəhərciyi" deyiləcək və bu, belə də oldu. Artıq bu gözəl yer "Jurnalistlər şəhərciyi"dir, burada üçüncü bina da tikiləcək. Əlbəttə ki, biz jurnalistlərin məişət problemlərinin həlli üçün gələcəkdə əlavə tədbirlər görəcəyik. Mənə deyiblər ki, burada yeni yola ehtiyac var. Çünki indi yol bir tərəfdən çəkilibdir, ona görə müvafiq göstəriş verilibdir ki, hər iki tərəfə çıxış olsun, insanlar burada daha da rahat yaşasınlar.

Hər bir şəhərin ən qiymətli, ən prestijli yerləri var. Adətən bu, şəhərlərin mərkəzi olur və dəniz kənarında yerləşən şəhərlərdə dəniz mənzərəli binalar daha da prestijli sayılır. Bax, bu binalar həm dəniz mənzərəlidir, həm də ki, şəhərin mərkəzində yerləşir. Buradan "Azneft" meydanına maksimum 5 dəqiqəlik yoldur. Bu, bir daha onu göstərir ki, biz çalışırıq jurnalistlər üçün ən yaxşı şərait yaradaq. Binalar da çox gözəldir, genişdir, işıqlıdır, rahatdır. Əminəm ki, jurnalistikada böyük xidmətlər göstərmiş, Vətən qarşısında böyük xidmətləri olmuş insanlar burada rahat yaşayacaqlar.

O ki qaldı, jurnalistikanın gələcək inkişafı ilə bağlı məsələlərə, sizə deyə bilərəm ki, Azərbaycan dövləti azad mətbuatın inkişafında bundan sonra da fəal olacaq. Jurnalistlər üçün bütün şərait yaradılıb. Bu gün Azərbaycan cəmiyyəti rahat şəraitdə, təhlükəsizlik, sabitlik şəraitində yaşayır. İndiki zəmanədə bu, özlüyündə bir nailiyyətdir və biz ölkəmizi bütün mümkün olan risklərdən qoruyuruq. Ölkəmizin daxilində demək olar ki, risk mənbələri yoxdur. Xaricdən özümüzü qorumaq üçün kifayət qədər ciddi siyasət aparılır, həm ideoloji sahədə, həm sərhədlərimizin qorunmasında və ümumiyyətlə. Biz həmişə çalışırıq və hesab edirəm buna nail olmuşuq ki, Azərbaycanı mümkün risklərdən qoruyaq, Azərbaycan xalqı rahat, sülh şəraitində yaşasın.

Mən tam əminəm ki, hər bir ölkənin inkişafı üçün demokratiya xüsusi rol oynayır. Ölkə iqtisadi cəhətdən zəngin ola bilər, təbii resurslarla zəngin ola bilər, amma əgər cəmiyyətdə gözəl ab-hava, azadlıqlar yoxdursa, bu inkişaf yarımçıq ola bilər və ya dayanıqlı olmaya bilər. Bizim üstünlüyümüz ondan ibarətdir ki, siyasi və iqtisadi islahatları paralel şəkildə aparırıq. Bu da hesab edirəm ki, çox düzgün və düşünülmüş siyasətdir. Çünki əgər demokratiya baxımından inkişaf etmiş ölkələrə nəzər salsaq görərik ki, onların mütləq əksəriyyəti iqtisadi cəhətdən də inkişaf etmiş ölkələrdir. Yəni, maddi rifah, iqtisadi inkişaf, sosial inkişaf demokratik inkişaf üçün əsas şərtdir.

Azərbaycanda həm demokratik, həm də sosial-iqtisadi inkişaf paralel gedir. Buna görə hesab edirəm ki, bizim cəmiyyətimizdə islahatlar təkamül yolu ilə aparılır və dərinləşir. Siyasi və iqtisadi islahatlar daha da dərinləşməlidir. Söz azadlığı Azərbaycanda tam təmin edilibdir, heç bir məhdudiyyət yoxdur. Mənə verilən son məlumata görə, Azərbaycan əhalisinin təxminən 80 faizi internet istifadəçisidir. Belə olan halda söz azadlığı ilə bağlı heç bir problem ola bilməz. Düzdür, bəzi hallarda bizi bəzi qeyri-hökumət təşkilatları tənqid edir, hətta ittiham edirlər. Amma bu ittihamların heç bir əsası yoxdur. Bu, sadəcə olaraq qərəzli mövqedir. Bunun səbəbi də bəllidir. Amma real vəziyyətə baxdıqda biz hamımız görürük ki, Azərbaycanda söz azadlığı və bütün başqa azadlıqlar tam təmin olunur. Sərbəst toplaşma azadlığı, siyasi fəaliyyət azadlığı, vicdan azadlığı, söz azadlığı, mətbuat azadlığı Azərbaycanda təmin olunur və təmin olunacaqdır.

Azərbaycan bundan sonra da iqtisadi və siyasi inkişaf yolu ilə getməlidir. Hesab edirəm, bizim qısa müstəqillik tariximiz onu göstərir ki, bu, yeganə düzgün yoldur. Çünki o qədər də asan olmayan geosiyasi vəziyyətdə Azərbaycan, ilk növbədə, öz müstəqil siyasətini qoruya və möhkəmləndirə bilib, heç bir xarici təsir altına düşməyib. Azərbaycan dövlətinin inkişafı Azərbaycan xalqının əlindədir. Ölkəmiz Azərbaycan xalqının iradəsi ilə idarə olunur. Biz böyük iqtisadi inkişafa nail olduq. Biz böyük meqalayihələri icra etdik. Biz özümüzü dünyada artıq multikulturalizmin mərkəzi kimi tanıda bildik və bu gün bu sahədəki uğurlarımız bir çox ölkələrdə öyrənilir. Yəni, əldə edilmiş bütün bu uğurların təməlində bizim düşünülmüş siyasətdir və o cümlədən demokratik cəmiyyətin formalaşmasıdır.

Jurnalistlər isə əlbəttə ki, fəaliyyətləri ilə bu inkişafa öz töhfələrini verirlər. Cəmiyyəti incidən, narahat edən problemləri üzə çıxarırlar. Sizə deyə bilərəm ki, mən bəzi hallarda hansısa xoşa-

gəlməz hadisə ilə bağlı məlumatı mətbuatdan əldə edirəm. Düzdür, mənə müxtəlif mənbələrdən hər gün müxtəlif məlumatlar gəlir. Yəni, əlbəttə ki, mənə həm xarici, həm daxili siyasətlə, həm də təhlükəsizlik məsələləri ilə bağlı əsas məsələlər məruzə edilir. İnsanları narahat edən məlumatlar haqqında mən mətbuatdan da xəbər tuturam, dərhal reaksiya verirəm. Dövlət məmurları və yaxud digər şəxslər, qüsurlara yol verən şəxslər bilirlər ki, Azərbaycanda söz və mətbuat azadlığı imkan verməyəcək ki, onlar işdə hansısa qüsurlar buraxsınlar. Ona görə jurnalistlər bəlkə də özləri də bilmədən mənim köməkçilərimdir. Buna görə də mən sizə minnətdaram. Əminəm ki, siz gələcəkdə də bütün cəmiyyəti narahat edən, incidən məsələlər haqqında yazacaqsınız, harada hansı ədalətsizlik var, qanunsuzluq var, dərhal operativ reaksiya verəcəksiniz, cəmiyyətin və dövlət orqanlarının diqqətini bu məsələlərə cəlb edəcəksiniz.

Bu gün peşə bayramı ərəfəsində jurnalistikanın inkişafı ilə bağlı bəzi fikirlərimi bildirmək istərdim. Əlbəttə, hər bir ölkədə olduğu kimi, Azərbaycanda da jurnalistika həqiqəti əks etdirməlidir. Bu gün siz də yaxşı bilirsiniz ki, dünya miqyasında bu barədə danışmaq lazımdır, çünki heç də hər zaman belə deyil. Biz görürük ki, dünyanın bir çox ölkələrində informasiya kampaniyaları aparılır. Bu kampaniyalar həm xarici, həm daxili xarakter daşıyır. Baxır gündəlikdə hansı məsələ dayanır və təşkil edilmiş informasiya kampaniyaları, əlbəttə, hansısa məqsədləri güdür. Bu məqsədlər bir çox hallarda həqiqətdən daha önəmli amil kimi qəbul edilir. Ona görə hesab edirəm ki, jurnalistikada, ilk növbədə, həqiqət prinsipləri üstünlük təşkil etməlidir.

Son illərdə mən görürəm ki, Azərbaycan jurnalistikası bu istiqamətdə daha da məsuliyyətli, daha da təmkinli olub. Artıq nadir hallarda hansısa məsuliyyətsiz məlumata, insanları alçaldan, ləyaqətini aşağılayan, təhqiredici yazılara rast gəlmək olar. Bu baxımdan bizim jurnalistlərimiz bəzi dırnaqarası siyasətçilərdən daha da öndədirlər. Hesab edirəm ki, jurnalistikamızda bu istiqamətdə müşahidə olunan islahatlar davam edəcək. Biz 1990-cı illərdə jurnalistikamızda hansı meyillərin hökm sürdüyünü yaxşı xatırlayırıq. Biz o vaxt çox üzücü bir mənzərə ilə üzləşmişdik. Yəni, bəzi mətbuat orqanlarında təhqir, böhtan və şər amilləri əsas rol oynayırdı. Ancaq indi həm cəmiyyətimiz, həm də jurnalistikamız inkişaf edib. Bu gün jurnalistlərin məsuliyyəti hesab edirəm ki, yüksək səviyyədədir, bu gün Azərbaycan jurnalistikasının mütləq əksəriyyəti sağlam jurnalistikadır.

Digər məsələlərə gəldikdə, hesab edirəm ki, jurnalistikamız xarici təsirdən azad olmalıdır, xarici təsir altına düşməməlidir. Azərbaycan getdikcə daha da güclənir, Azərbaycanın rolu nəinki bölgədə, dünyada artır. Bölgədə bizim iştirakımız, razılığımız olmadan heç bir layihə, yaxud siyasi, iqtisadi və digər təşəbbüs reallaşa bilməz. Biz müstəqil siyasət aparırıq. Ona görə bizim siyasətimizə heç bir kənar qüvvə təsir edə bilməz.

Ancaq Azərbaycan daha önəmli ölkə olduğu üçün bizə təsir etmək cəhdləri də artır. Onlar özünü yeni formalarla büruzə verir. Siyasi hakimiyyətə təsir etmək mümkün deyil. Yəni, ictimai rəyə, ictimai fikrə təsir etmək cəhdləri çoxalır. Bunu necə etməli? Jurnalistika vasitəsilə. Ona görə Azərbaycan jurnalistikası vətənpərvər olmalıdır. Ölkəmizdə kifayət qədər problemlər, çatışmayan cəhətlər, qüsurlar var. Siz bunu işıqlandırırsınız və işıqlandırmalısınız. Dövlət orqanlarını, məmurları tənqid edirsiniz, tənqid etməlisiniz. Bu, təbii prosesdir. Ancaq, eyni zamanda, biz hamımız bilməliyik ki, bu, bizim ölkəmizdir. Azərbaycanı bizdən çox sevən insan, ya qurum, ya ölkə yoxdur, ola da bilməz. Ona görə biz özümüzü xarici təsirdən qorumalıyıq. Gənc nəsli qorumalıyıq ki, daim Azərbaycan müstəqil dövlət kimi inkişaf etsin. Çünki bizim tariximiz əfsuslar olsun elədir ki, biz müxtəlif dövrlərdə müxtəlif dövlətlərin, imperiyaların tərkibində yaşamışıq, müstəqil olmamışıq. Bu, istər-istəməz bizim psixologiyamıza da müəyyən dərəcədə təsir edib.

Bu gün biz müstəqil, azad dövlət və xalq kimi yaşayırıq, ləyaqətlə yaşayırıq. Həmişə belə olmalıdır. Həmişə ölkəmizin taleyi Azərbaycan xalqının əlində olmalıdır. Ona görə özümüzü xarici təsirdən qorumaq üçün Azərbaycan dövləti çox ciddi və uğurlu siyasət aparır. Deyə bilərəm ki, bizə təzyiq etmək, bizi nəyəsə sövq etmək, məcbur etmək cəhdləri kəskin şəkildə aşağı düşüb. O cümlədən, ona görə ki, bu səylərin heç bir nəticəsi yoxdur. Ona görə biz informasiya məkanımızı da qorumalıyıq. Bunu etmək çətindir. Çünki biz bu gün internet dövründə yaşayırıq. Hansısa hər bir yalan, böhtan, təxribat xarakterli məlumat dərhal özünə yer tapır. Ancaq milli jurnalistikamız, Azərbaycan jurnalistikası vətənpərvər olmalıdır, milli maraqlar hər şeydən üstün olmalıdır.

Biz Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə daha da geniş şəkildə çatdırırıq və çatdırmalıyıq. Mən burada medianın rolunu yüksək qiymətləndirirəm, işlər davam etdirilməlidir.

Bir sözlə, əziz dostlar, mən bu gün bu fürsətdən istifadə edərək, jurnalistikamızın inkişafı ilə bağlı bəzi fikirlərimi sizinlə bölüşmək istədim. Bir daha demək istəyirəm ki, Prezident kimi mən azad medianın inkişafı üçün bundan sonra da səylərimi əsirgəməyəcəyəm. Jurnalistlərin məişət problemlərinin həlli üçün də bundan sonra da biz öz addımlarımızı atacağıq. Çünki mən yaxşı başa düşürəm ki, jurnalist biznesmen, iş adamı deyil. Jurnalistika ilə məşğul olan insan üçün mənzil almaq o qədər də asan məsələ deyil və dövlət burada həmişə sizin yanınızdadır. Azərbaycan dövləti güclü dövlətdir, sosial dövlətdir. Siz bilirsiniz ki, biz sosial məsələlərin həlli üçün bütün lazımi tədbirləri görürük. Neftin qiymətinin qalxmasına, düşməsinə baxmayaraq, sosial proqramların icrasında heç bir geriləmə, yubanma yoxdur. İkinci binanın tikintisinə dörd il vaxt gedib. Bu üçüncü binanı da biz maksimum üç ilə tikməliyik. Qaldı maliyyə vəsaitinə, burada heç bir problem olmayacaq ki, biz sizinlə tezliklə üçüncü binanın açılışında görüşək.

* * * * *

Tədbirdə "Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin informasiya proqramları studiyasının direktoru Mehriban Məmmədova, Mətbuat Şurasının sədri Əflatun Amaşov çıxış etmişlər.

Mətbuat Şurasının sədri Əflatun Amaşov "Jurnalistlərin dostu" mükafatını Prezident İlham Əliyevə təqdim etmişdir.

Daha sonra Prezident İlham Əliyev binanın istifadəyə verilməsini bildirən rəmzi lenti kəsmiş və mənzillərdə yaradılan şəraitlə tanış olmuşdur.

1600 nəfər işlə təmin ediləcək

Ənənəvi sənaye sahələrindən olan xalçaçılığın inkişafı məqsədi ilə "Azərxalça" ASC tərəfindən 10 rayonda xalça müəssisələrinin tikintisinə başlanmışdır və artıq Füzuli rayonunun Horadiz qəsəbəsində xalça müəssisəsi fəaliyyət göstərir.

İqtisadiyyat Nazirliyindən daxil olmuş məlumata görə, Şəmkir rayonunda isə bu cür müəssisə artıq fəaliyyətə başlamağa hazırdır. 8 müəssisənin tikintisi isə bu il başa çatdırılacaqdır. Bu müəssisələr işə başladıqdan sonra ümumilikdə 1600 yeni iş yerinin açılması təmin ediləcəkdir. Xalça istehsalı üçün etibarlı xammal bazasının yaradılması, habelə ixrac potensialının artırılması məqsədilə yunun tədarükü sistemi yaradılır. Artıq 4 rayonda yun tədarükü məntəqəsinin təşkili istiqamətində iş aparılır.

Bundan başqa, "Azərxalça" ASC tərəfindən əyirici-boyaq müəssisəsinin tikintisi davam etdirilir.

Suraxanıda yeni zavod tikilir

Hazırda Zığ-Hövsan-Türkan yolunun, "ATEF Şirkətlər Qrupu" MMC tərəfindən yüksək gərginlikli avadanlıqlar istehsalı zavodunun, Yeni Günəşli "AB" yaşayış sahəsində özəl klinikanın tikintisi işləri aparılır.

Bu barədə Suraxanı rayonunun icra hakimiyyətindən bildirilib.

Eyni zamanda, Qaraçuxur qəsəbəsi, Əhməd Mehbalıyev küçəsi 34 və 36, Qəzənfər Vəliyev küçəsi 13 ünvanda yerləşən istismara yararsız 3 ikimərtəbəli yaşayış binalarının əvəzinə 12 və 14 mərtəbəli, iki girişli, 177 mənzilli yaşayış binası inşa olunur.

Bundan başqa, Yeni Günəşli "D" yaşayış sahəsində 1254 mənzilli 9, Zığ qəsəbəsində 1050 mənzilli 15, Yeni Günəşli "AB" yaşayış sahəsində 340 mənzilli 1, Qaraçuxur qəsəbəsi Y.Eyvazov küçəsində 210 mənzilli 3 çoxmərtəbəli yaşayış binalarının inşası davam etdirilir.

Sənaye parkı və zonalarında 17 müəssisə fəaliyyətə başlayır

Artıq ölkəmizdə Sumqayıt Kimya Sənaye, Balaxanı, Qaradağ, Mingəçevir və Pirallahı sənaye parkları yaradılmışdır. Sumqayıt Kimya Sənaye Parkında ümumi investisiyalarının həcmi 1,2 milyard dollar təşkil edən 10 müəssisəyə rezident statusu verilmişdir.

Bunu İqtisadiyyat Nazirliyində keçirilmiş kollegiya iclasında iqtisadiyyat naziri Şahin Mustafayev bildirib.

Qeyd edilib ki, 2013-cü ildə fəaliyyətə başlamış və 760 nəfərdən çox işçinin çalışdığı "Azertexnolayn" zavodunda təkcə bu ilin 6 ayı ərzində 65 mln. manatlıq məhsul istehsal olunmuşdur.

Sənaye Parkında bu il daha 5 müəssisə, 2018-ci ildə isə 3 müəssisə fəaliyyətə başlayacaqdır. Bu müəssisələrdə 900-ə yaxın yeni iş yerinin açılması nəzərdə tutulur.

"Yaşıl iqtisadiyyat"ın, təkrar emal sənayesinin inkişafında əhəmiyyətli rola malik olan Balaxanı Sənaye Parkında 23 milyon manat investisiya yatırmaqla tullantıların təkrar emalı üzrə 5 müəssisə fəaliyyətə başlamağa hazırdır və bu müəssisələrdə 400-ə yaxın yeni iş yeri yaradılmışdır.

Gəmiqayırma sahəsində ixtisaslaşmış Qaradağ Sənaye Parkında Bakı Gəmiqayırma Zavodu fəaliyyət göstərir və zavodda yüksək yükgötürmə qabiliyyətinə malik tanker, dəniz təchizat gəmisi və digər təyinatlı gəmilərin istehsalı həyata keçirilir. Artıq Bakı Gəmiqayırma Zavodunda onlarla gəmi tikilərək istifadəyə verilmiş, 60-dan çox gəmi təmiri işləri həyata keçirilmişdir. Hazırda müəssisə tərəfindən BP şirkətinin sifarişi ilə dəyəri 378 milyon ABŞ dolları olan "Xankəndi" sualtı tikinti gəmisinin və 2 ədəd "Ro-pax" tipli gəmi bərənin inşası işləri davam etdirilir.



Mingəçevir Sənaye Parkında yüngül sənaye məhsulları, o cümlədən ayaqqabı, tibbi kosmetika, iplik, boyama, toxuma, tikiş və corab istehsalı üzrə 9 fabrikin yaradılması və 5 mindən çox yeni iş yerinin açılması nəzərdə tutulur. Artıq Sənaye Parkının rezidenti "Mingəçevir Tekstil" MMC 2 növdə ipliklərin istehsalı fabrikinin tikintisinə başlamışdır. Dəyəri 46 milyon ABŞ dolları olan layihə çərçivəsində 550 yeni iş yerinin yaradılması və fabrikin 2017-ci ilin sonlarında istismara verilməsi nəzərdə tutulur.

Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi sahəsində həyata keçirilən mühüm tədbirlərdən biri də ölkəmiz üçün yeni sənaye sahəsi olan əczaçılıq məhsulları istehsalının yaradılmasıdır. Bu məqsədlə Pirallahı Sənaye Parkında artıq 2 dərman zavodunun təməli qoyulmuşdur. Dəyəri 4 mln. ABŞ dolları olan və birdəfəlik şprislərin istehsalını nəzərdə tutan "Diamed Co" zavodunun tikintisinə isə yaxın zamanlarda başlanılacaq və müəssisə 2018-ci ilin 1-ci yarısında istismara veriləcək. Ümumilikdə bu müəssisələrdə 350-yə yaxın yeni iş yerinin açılması nəzərdə tutulur.

Bunlarla yanaşı, hazırda Türkiyənin, BƏƏ-nin, Yaponiyanın və Cənubi Koreyanın aparıcı şirkətləri ilə əczaçılıq məhsullarının birgə istehsalının təşkilinə dair danışıqlar aparılır.

Regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişaf etdirilməsi baxımından sənaye zonalarının yaradılması böyük əhəmiyyət kəsb edir. Belə ki, Neftçala Sənaye Zonasında 3 müəssisə artıq fəaliyyətə başlayıb, daha 6 müəssisənin isə bu il fəaliyyətə başlaması nəzərdə tutulur. Masallı Sənaye Zonasına sahibkarlar tərəfindən böyük maraq göstərilir və artıq onlar tərəfindən dəyəri 33 milyon manatdan çox olan 33 layihə təqdim olunmuşdur. Sənaye Zonasının layihələndirmə işləri tamamlanmışdır və bu yaxınlarda infrastrukturunun yaradılması işlərinə başlanılacaq. Hazırda Ağdam, Ağstafa, Qazax və digər rayonlarda da sənaye zonalarının yaradılması imkanları araşdırılır.

Bakıda ilk dəfə ayrıca balıq bazarı yaradılacaq

Pirallahı rayonunda yeni iş yerləri və istehsal sahələri yaradılacaq".

Bunu Azərbaycan Prezidenti İlham Əliyev iyulun 21-də Bakının Pirallahı qəsəbəsinin içməli su təchizatı layihəsinin açılış mərasimində bir qrup sakinlə görüşdə deyib.

Dövlət başçısı qeyd eidb ki, rayonda balıq bazarı yaradılacaq: "Bu günə qədər Bakı şəhərində balıq bazarı olmayıb. Bu böyük bir çatışmazlıqdır. Çünki dəniz kənarında yerləşən şəhərlərin əksəriyyətində balıq bazarları olur. Bu, həm vətəndaşlara xidmət edir, eyni zamanda bu balıq bazarları bir növ turizm zonasına çevrilir".

Hacıqabul Sənaye Məhəlləsi yaradılır

Hacıqabul Sənaye Məhəlləsinin fəaliyyətinin təşkili, həmin ərazinin istifadəyə yararlı vəziyyətə gətirilməsi məqsədi ilə Prezidentin ehtiyat fondundan 4 milyon manat ayrılıb

Prezident İlham Əliyev iyulun 25-də "Hacıqabul Sənaye Məhəlləsinin yaradılması haqqında" Sərəncam imzalayıb.

Sərəncama əsasən, kiçik və orta sahibkarlığın dəstəklənməsi məqsədilə Hacıqabul Sənaye Məhəlləsinin ərazisində qeyri-neft sənaye sahələri üzrə məhsul istehsalı müəssisələri, habelə xidmət müəssisələri yaradılacaq.

Sənaye məhəlləsinin fəaliyyətinin təşkili və tənzimlənməsi "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinə həvalə olunur.

Nazirlər Kabinetinə Hacıqabul Sənaye Məhəlləsinin fəaliyyəti üçün Hacıqabul rayonu ərazisində 20 hektar torpaq sahəsinin məqsədli təyinatının dəyişdirilərək sənaye təyinatlı torpaqlar kateqoriyasına keçirilməsini, eyni zamanda, nəzərdə tutulmuş torpaq sahəsinin icarəyə vermək hüququ ilə "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin daimi istifadəsinə verilməsini təmin etmək tapşırılıb.

İqtisadiyyat Nazirliyi isə Hacıqabul Sənaye Məhəlləsinin fəaliyyəti ilə bağlı müvafiq torpaq sahəsinin istifadəyə yararlı vəziyyətə gətirilməsini, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) qurulması, eləcə də iştirakçıların fəaliyyətinin dəstəklənməsi və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün digər xidmətlərin göstərilməsini təmin etmək məqsədi ilə zəruri tədbirlər görməlidir.

Həmçinin, Hacıqabul Sənaye Məhəlləsinin fəaliyyətinin təşkili, tənzimlənməsi və istehsal olunan sənaye məhsulları üzrə prioritet istiqamətlərin müəyyənləşdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etməlidir.

Hacıqabul Rayon İcra Hakimiyyəti nəzərdə tutulmuş torpaq sahəsinin məqsədli təyinatının dəyişdirilməsi ilə bağlı bir ay müddətində Nazirlər Kabinetinin qarşısında vəsatət qaldırmalıdır.

Hacıqabul Sənaye Məhəlləsinin fəaliyyətinin təşkilini, həmin ərazinin istifadəyə yararlı vəziyyətə gətirilməsini, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) qurulmasını təmin etmək məqsədi ilə 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan İqtisadiyyat Nazirliyinə 4 milyon manat ayrılıb.

Şərəflə yaşanan ömür

Həyatda hər şey qiymətləndirilir, o cümlədən insan. İnsana da əməlinə görə qiymət verirlər: istər yaxşı əməl olsun, istərsə yaman. Amma unutmamalıyıq ki, həyatda qalan da elə yaxşılar və yaxşı əməllər olur. Əmək fəaliyyətinə sadə zəhmət insanı olaraq istehsalatdan başlayan, həyatı boyu öz qabiliyyəti ilə ucalan deputat həmkarımız, görkəmli inşaatçı-mühəndis, dəyərli ziyalı Ağalar Vəliyev də məhz əməlləri və şərəfli ömür yolu ilə fərqlənən, cəmiyyətə örnək olan şəxsiyyətlərdəndir.

Ağalar Vəliyev bu günlərdə - iyulun 23-də ömrünün 60-cı yayını tamamlayıb. 60 yaşın tamamını adətən müdrikliyin başlanğıc dövrü adlandırırlar. Yaşanmış bu illəri həm də bir tərəfdən ömrün çox, digər tərəfdən az hissəsi hesab edirik. Amma ötüb keçənlərə nəzər saldıqda, geridə qoyduqlarımızı vərəqləyəndə, ürəkdə qalmış arzuları incələyəndə görürsən ki, ömür düşündüyümüzdən də qısadır. Bununla belə, insanın mənəvi yetkinlik dövrünə qədəm qoyduğu, özü qarşısında hesabat verdiyi 60 il həm də böyük zaman kəsiyidir. Ən əsası isə odur ki, məhz şərəflə yaşanan ömür müddətindən asılı olmayaraq insan həyatında iz qoyan əbədi keyfiyyət möhürüdür. Bu mənada tərcümeyi-halına nəzər salanda görürsən ki, ömrünün 60 ilini geridə qoyan Ağalar Vəliyev üçün də bu illər qısalığından və ya uzun zaman kəsiyi olmasından asılı olmayaraq kifayət qədər dolğun, mənalı yaşanmış bir həyatdır.

Əmək fəaliyyətinə 41 il əvvəl Yevlax Dəmir-Beton Məmulatları Zavodunda fəhlə kimi başlayan və direktor vəzifəsinədək yüksələn, sonralar "Azəravtoyol" İstehsalat Birliyinin Yevlax "Körpütikinti" Kombinatının baş direktoru, Yevlax 2 saylı Yol Təmir Tikinti Trestinin rəisi vəzifələrində çalışan Ağalar Vəliyevin keçdiyi zəngin və mənalı ömür yolu onun seçdiyi amallara və kamil şəxsiyyət ideallarına sadiqliyin parlaq nümunəsidir. O, hansı müəssisədə, hansı vəzifədə çalışmağından asılı olmayaraq həmişə yüksək peşəkarlıq və səriştəlilik nümayiş etdirib, bütün kollektivə örnək olub. Məhz tikinti sahəsində uğurlu fəaliyyəti, yüksək peşəkarlığı, işgüzarlığı və geniş istehsalat təcrübəsi nəzərə alınaraq 1996-cı ildə Ağalar Vəliyevə ulu öndər Heydər Əliyev tərəfindən böyük etimad göstərilib. Ulu öndərin 19 iyun 1996-cı il tarixli sərəncamı ilə Ağalar Vəliyev "Azəraqrartikinti" Dövlət Şirkətinin prezidenti vəzifəsinə təyin olunub. 1998-ci ildən həmin şirkətin bazasında yaradılmış respublika əhəmiyyətli "Azəraqrartikinti" Səhmdar Cəmiyyətinin prezidenti, hal-hazırda həmin cəmiyyətin Müşahidə Şurasının sədri vəzifəsində çalışır.

Tanıyanlar bilir ki, Ağalar müəllim bir işi başa çatdırıb onunla kifayətlənən insanlardan deyil. Elə bil Tanrı bu insanı əzmlə işləmək üçün xəlq edib. Onun yerinə başqa adam olsaydı, bəlkə də "Azəraqrartikinti" ASC inşaat-tikinti sektorunun aparıcı şirkətinə çevrilməzdi. Amma Ağalar müəllim daim fəaliyyətdə, öz sahəsində yenilik axtarışındadır. Məhz bunun nəticəsidir ki, ilbəil "Azəraqrartikinti" ASC böyüdü, fəaliyyətini genişləndirdi, yeni iş yerləri açdı, neçə-neçə ailənin buradan gələn ruzi ilə rifahı yüksəldi.

Cəsarətlə demək olar ki, "Azəraqrartikinti" Səhmdar Cəmiyyəti icra etdiyi müqavilələrin həcminə və mürəkkəbliyinə görə respublikada ön sıralarda olan tikinti təşkilatlarından biridir. Cəmiyyətdə yüksək ixtisaslı kadr potensialı cəmləşmişdir. Onun icra aparatında və filiallarında öz peşəsinin vurğunu olan yüzlərlə yüksək ixtisaslı mühəndis, memar və digər peşə sahibi çalışır.

Bu gün "Azəraqrartikinti" Səhmdar Cəmiyyəti respublikanın tikinti kompleksində öz dəst-xətti və xüsusi çəkisi olan respublika əhəmiyyətli təşkilatlardan biridir. Məhz "Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyətinin prezidenti vəzifəsində Ağalar Vəliyevin yüksək erudisiyaya və hərtərəfli biliyə malik səriştəli mühəndis olması özünü daha bariz şəkildə göstərib. Belə ki, onun rəhbərlik etdiyi kollektiv tərəfindən ötən 20 ildə yüzlərlə müxtəlif təyinatlı obyektlər tikilib, yaxud yenidən qurulub. Bunlara misal olaraq Heydər Əliyev Sarayında, Milli Məclisdə aparılmış bərpa və yenidənqurma işlərini, parlamentin yeni korpusunun, Hesablama Palatası üçün yeni inzibati binanın tikintisini göstərmək olar. Ona həvalə olunan Azərbaycan Milli Elmlər Akademiyasının əsas binasında, həmçinin AMEA-nın Tarix Muzeyində, Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində aparılan tikinti, bərpa və yenidənqurma işlərini, AMEA Mərkəzi Elmi Kitabxanasının, AMEA-nın Milli Ensiklopediya Mərkəzinin, Bakı şəhərində Apelyasiya Məhkəməsi üçün inzibati binanın, Kənd Təsərrüfatı və Ədliyyə Nazirliyinin bir sıra obyektlərinin, Bakı şəhərinin rayonlarında xeyli sayda məktəblərin və uşaq bağçalarının, Şəmkir-Gəncə magistral su xəttinin, Goranboy və Göygöl rayonlarının su və kanalizasiya şəbəkələrinin, Bakı şəhərində və respublikanın müxtəlif şəhər və rayonlarında məcburi köçkün soydaşlarımız üçün salınan qəsəbələrdə xeyli sayda çoxmərtəbəli və fərdi yaşayış evlərinin tikintisini də "Azəraqrartikinti" ASC vaxtında və yüksək keyfiyyətlə başa çatdırıb.

Hər bir başa çatan tikinti işi göstərir ki, ASC-nin əsas məqsədi inşaat sahəsi üzrə dünyanın qabaqcıl ölkələrini ən mütərəqqi və qabaqcıl texnologiyalarını, daha müasir material və avadanlıqlarını iş prosesində tətbiq etmək, milli memarlıq ənənələrini qorumaqla estetik cəhətdən daha gözəl və baxımlı layihələri həyata keçirmək, bununla da müstəqil Azərbaycanımızın gündən-günə daha da gözəlləşməsinə öz layiqli töhfəsini verməkdir.

Məlum olduğu kimi, bu tikinti işlərinin əksəriyyəti Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirildiyi üçün daim ölkə rəhbərliyinin diqqət mərkəzində olub. **Təsadüfi deyil ki, yuxarıda sadalanan obyekt və binalarda tikinti və yenidənqurma işlərinin başa çatmasından sonra keçirilən açılış mərasimlərində Prezident İlham Əliyev də iştirak edib. Həmişə keyfiyyətə və yüksək zövqə önəm verən dövlət başçısı tikinti işlərinin gedişi ilə yaxından maraqlanıb, görülən işlərlə ətraflı tanış olub.**

Hər kəsin əməyini layiqincə dəyərləndirən Prezident İlham Əliyev respublikanın tikinti kompleksində uzun illər səmərəli fəaliyyətinə görə Ağalar Vəliyevi 9 aprel 2010-cu il tarixli sərəncamı ilə respublikanın Əməkdar mühəndisi fəxri adına layiq görüb. **Dövlət başçısının 10 aprel 2012-ci il tarixli sərəncamı ilə isə inşaat sahəsində səmərəli fəaliyyətinə görə Ağalar Vəliyev "Şöhrət" ordeni ilə təltif edilib.**

Bu sətirləri yazarkən dəyərli həmkarımız barədə növbəti xoş xəbər aldıq. Prezident İlham Əliyevin bu günlərdə imzaladığı sərəncamla Ağalar Vəliyev 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ağalar Vəliyev təkcə təcrübəli inşaat mütəxəssisi deyil. O, həm də ümummilli lider Heydər Əliyevin qurucusu olduğu, bu gün Prezident İlham Əliyevin sədrlik etdiyi Yeni Azərbaycan Partiyasının üzvü kimi uzun illərdir ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edir. 2010-cu ildən isə Ağalar Vəliyevin həyatında yeni və daha şərəfli, şərəfli olduğu qədər də məsuliyyətli bir mərhələ başlayıb. Həmin il müstəqil Azərbaycan dövlətinin IV çağırış Milli Məclisinə keçirilən seçkilərdə Ağalar Vəliyev Yeni Azərbaycan Partiyasından irəli sürülmüş namizəd kimi 11 saylı Qaradağ seçki dairəsindən deputat seçilib. 2015-ci ildə 97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsindən V çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə təkrarən deputat mandatı qazanmağı seçicilərin Ağalar Vəliyevə olan etimadının təzahürüdür.

Bu gün respublikada Prezident İlham Əliyevin rəhbərliyi ilə dərin iqtisadi islahatlar həyata keçirilir. Bu dövr də qanunvericiliyin yenidən nəzərdən keçirilməsini zəruri edir. Təsadüfi deyil ki, ötən il Milli Məclisdə islahatların qanunvericilik bazasının möhkəmləndirilməsinə xidmət edən bir sıra mühüm qanunlar qəbul edildi. Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini kimi Ağalar Vəliyev ölkədə həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının hüquqi əsaslarının təkmilləşdirilməsinə yönələn bir sıra qanunların, o cümlədən 2011-2017-ci illərin "Azərbaycan Respublikasının dövlət büdcəsi haqqında", "Azərbaycan Respublikasının şəhərsalma və tikinti məcəlləsi haqqında", "Sahibkarlıq fəaliyyəti haqqında", "Qiymətləndirmə fəaliyyəti haqqında", "Sığorta fəaliyyəti haqqında", "Patent haqqında", "Lisenziyalar və icazələr haqqında", "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında", "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" və digər önəmli iqtisadi qanunların hazırlanmasında fəal iştirak edib, qanunların qəbulunda nəzərə alınan təkliflər verib.

Ağalar Vəliyevin Milli Məclisdə fəaliyyəti yalnız ölkəmizin iqtisadi qanunvericiliyinin formalaşdırılması və ya təkmilləşdirilməsində iştirakla məhdudlaşmır. O, həm də aktiv siyasi fəaliyyətlə məşğuldur. Ötən çağırış ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü kimi fəaliyyət göstərən Ağalar Vəliyev beynəlxalq tədbirlərdə Milli Məclisi uğurla təmsil etməklə yanaşı, xarici səfərlərdə, ezamiyyətlərdə olarkən Azərbaycanın haqq səsini beynəlxalq təşkilatlara, dünya ictimaiyyətinə çatdırmaq üçün səmərəli fəaliyyət göstərib. O, istər xarici ölkələrdə olarkən, istərsə də xarici dövlətlərdən gələn nümayəndə heyətləri ilə Milli Məclisdə görüşərkən Dağlıq Qarabağ məsələsini daim diqqət mərkəzinə çəkib, bu istiqamətdə Azərbaycan Prezidentinin siyasi xəttini, Azərbaycanın ədalətli mövqeyini izah etmək üçün zəruri işlər aparıb. Hazırda Ağalar Vəliyev Azərbaycan-Sloveniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Avstriya, Avstraliya-Yeni Zelandiya, Belarus, Çin, Türkiyə və Özbəkistan parlamentləri ilə dostluq qruplarının üzvüdür. O, Türkdilli dövlətlərin PA-da Azərbaycan nümayəndə heyətinin üzvü və Avronest PA-nın müvafiq komitəsinin sədr müavini kimi də Milli Məclisin beynəlxalq sahədə əməkdaşlığının inkişafında səylərini əsirgəmir.

Ölkə əhəmiyyətli siyasi kampaniyalar dövründə də Ağalar müəllimi YAP üzvü və Milli Məclisin deputatı kimi seçicilər arasında görmək mümkündür. İstər son prezident seçkilərində, istər ötən il Konstitusiyaya dəyişikliklər edilməsi ilə əlaqədar keçirilən referendum ərəfəsində o, təşviqat kampaniyalarında fəal iştirak etməklə öz əqidə borcunu layiqincə yerinə yetirdi.

Təbii ki, deputatın əsas fəaliyyət istiqamətlərindən biri seçiciləri ilə görüşmək, onların ortaya çıxan problemlərinin həllinə yardım etməkdir. Biz Ağalar Vəliyevi bu baxımdan da nümunəvi deputat kimi tanıyırıq. Onun özü gördüyü işlərdən danışmağı sevməsə də, bilirik ki, ötən 7 ildə seçildiyi seçki dairələrini əhatə edən Qaradağ, Goranboy, Ağdam, Tərtər rayonlarının seçiciləri ilə keçirdiyi görüşlərdə, qəbullarda, vətəndaşların fərdi və kollektiv müraciətlərində qaldırılan problemlərin həllinə kömək göstərilməsi, məhəllədaxili yolların asfaltlanması, əhalinin enerji daşıyıcıları və kommunal xidmətlərlə təminatının yaxşılaşdırılması məqsədilə onun tərəfindən xeyli işlər görülüb. **O, millət vəkili kimi təmsil etdiyi rayonların sosial-iqtisadi problemlərinin həllinə həmişə kömək göstərib, seçicilərini, xüsusilə aztəminatlı ailələri daimi diqqət və qayğı ilə əhatə edib. 2016-cı ilin aprel ayında ermənilərin Goranboyda, Ağdamda və Tərtərdə dağıtdığı mülki evlərin və sosial obyektlərin bərpası istiqamətində Ağalar Vəliyevin təşkilatçılığı ilə mühüm işlər həyata keçirilib.**

Onu da xatırladı ki, Ağdamda məcburi köçkünlərin doğma yurd həsrətini və seçicilərin istəklərini nəzərə alaraq Heydər Əliyev Fondunun təşəbbüsü və bilavasitə Ağalar Vəliyevin təşkilatçılığı ilə Quzanlı qəsəbəsində təməlqoyma mərasimində Prezidentin şəxsən iştirak etdiyi, bütün müasir tələblərə cavab verəcək Muğam Mərkəzi tikilir. Ağalar Vəliyevin bu layihədə iştirak etməsi, Bərdədə Seyid Yusif Ağanın məzarı üzərində məqbərə-ziyarətgah kompleksini inşa etdirməsi onun mənəvi dəyərlərimizə dərin bağlılığının göstəricisidir.

Ağalar Vəliyev həm də xeyriyyəçidir. Məsələn, onun təşəbbüsü ilə 2015-ci ilin may ayında Xırdalan şəhərində "Kristal-Abşeron" MTK tərəfindən inşa edilmiş 126 mənzillik yaşayış binası, cari ilin iyun ayında isə 7 mənzil məcburi köçkün soydaşlarımıza paylanması üçün Heydər Əliyev Fonduna bağışlanmışdır.

2011-2015-ci tədris illəri ərzində millət vəkili kimi Ağalar Vəliyevin təşəbbüsü ilə Qaradağ rayonunun 19 ümumtəhsil məktəbinin I-XI siniflərinin 999 əlaçı şagirdə, 600-dən yuxarı balla ali məktəblərə daxil olmuş 61 tələbəyə pul mükafatlarının verilməsi, 3 aztəminatlı tələbənin təhsil haqqının ödənilməsi, təhsil müəssisələrinə noutbuklar və kompüter dəstləri hədiyyə olunması ölkə rəhbərliyinin insan kapitalının formalaşdırılması siyasətinə, təhsil sistemində aparılan islahatlara Ağalar müəllim tərəfindən göstərilən böyük dəstəkdir. Onun insani keyfiyyətlərindən xəbər verən bu cür savab əməlləri barədə kifayət qədər danışmaq olar. İstər deputat, istər inşaatçı kimi o öz həyat amalını dövlətə və xalqa xidmətdə, vətəndaşlıq missiyasını layiqincə həyata keçirməkdə görür. Bu da ondan irəli gəlir ki, Ağalar müəllim həqiqətən mənən zəngin insandır.

Ağalar müəllim bir millət vəkili, professional mühəndis, bacarıqlı təşkilatçı, ziyalı kimi çox sevinir ki, Azərbaycan uğurla inkişaf edir, onun iqtisadi qüdrəti ildən-ilə artır. Necə sevinməsin Ağalar müəllim, - Azərbaycan dövlətinin uğurları o qədər miqyaslı, əzəmətlidir ki, bu nailiyyətlərə çoxsaylı dövlətlər neçə-neçə onilliklər nail ola bilməyiblər. Belə bir dinamik inkişafın ən başlıca səbəbi odur ki, Azərbaycan dövləti müstəqil, milli maraqlara cavab verən siyasət yeridir, özünün davamlı və keyfiyyətli inkişafını təmin etmək, xaricdən asılılığa yol verməmək, malik olduğu insan kapitalı, zəngin təbii resurslardan səmərəli istifadə etməklə inkişaf etmiş ölkələr səviyyəsinə yüksəlmək siyasəti yeridir.

Ağalar müəllimin mətbuatda dərc etdiyi "Ölkəmizin inşaat kompleksi müstəqil Azərbaycanın iqtisadi qüdrətinin artmasında mühüm rol oynayır" adlı yazısında bu fikirləri qeyd etmək maraqlı olardı.

Son 15 ildə Azərbaycan iqtisadiyyatına ayrılan əsaslı vəsait qoyuluşunun həcmi 100 milyard manatdan çox olmuşdur. Nəticə etibarilə ölkə iqtisadiyyatının quruluşunda əhəmiyyətli dəyişikliklər əldə edilmiş, yeni zavod və fabriklər işə salınmış, geniş miqyasda sosial-mədəni obyektlər istifadəyə verilmiş, irimiqyaslı infrastruktur layihələri həyata keçirilmişdir.

Görülən tədbirlər sayəsində əsaslı tikintidə xeyli mütərəqqi dəyişikliklər baş vermiş, onun texniki-iqtisadi göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşmışdır..

Ağalar müəllim Azərbaycanın inşaat kompleksinin gələcəyinə böyük nikbinliklə baxır və bildirir ki, ölkəmizdə azad bazar münasibətlərinin bərqərar olduğu, əsaslı tikintidə görülən işlərin həcmində özəl sektorun xüsusi çəkisinin yüksəldiyi bir şəraitdə hər bir şirkət, sahibkar çalışır ki, tikdiyi obyekt vaxtında istifadəyə verilsin, qoyulan sərmayə mənfəət gətirsin, milli iqtisadiyyatın inkişafına dəstək olsun. Hazırda ölkədə aparılan islahatlar, "neftsiz dövr"ün formalaşması və inkişafı istiqamətində uğurlu addımlar atılır. Qeyri-neft sənayesinin üstün inkişafına xidmət edən zavod və fabriklər işə salınır, aqrar sektorun potensialından daha səmərəli istifadə olunması məqsədilə ixtisaslaşma, iri təsərrüfatların yaradılması, əsassız istifadə olunmayan torpaqların təsərrüfat dövriyyəsinə cəlb edilməsi, infrastruktur və sosial layihələrin vaxtında icrası ilə bağlı tədbirlər geniş vüsət alır. Bütün bu müsbət dəyişikliklər, heç şübhəsiz ki, ölkəmizdə sosial-iqtisadi inkişafla bağlı nəzərdə tutulmuş məqsəd və vəzifələrin uğurla yerinə yetirilməsini həll edəcək, onun davamlı inkişaf imkanlarını daha da artıracaqdır.

Ağalar Vəliyev zəngin təcrübəsi, yüksək peşəkarlığı ilə öhdəsinə düşən dövləti vəzifələri və həvalə olunan çoxşaxəli işləri həmişə layiqincə yerinə yetirib. Alicənablığı, səmimiyyəti, təvazökarlığı ilə hər kəsin - seçicilərinin, dostlarının və yaxınlarının daim ehtiramına layiq görülüb. 60 yaş ömrün nura qərq olan çağı, müdriklik zirvələrindən biridir.

Həyatın elə bir məqamıdır ki, bu yaşda insan keçdiyi yola nəzər salır, əldə etdiyi uğurlara qiymət verir, eyni zamanda gələcək planlarını götür-qoy edir, Vətəninin qüdrətinin artması üçün daha hansı işləri görə biləcəyini müəyyənləşdirir. Bu baxımdan Ağalar Vəliyevin fəxr edə biləcəyi nailiyyətlər də çoxdur, bundan sonra həyata keçirməli olduğu işlər də. Əminik ki, o, indiyə qədər olduğu kimi, bundan sonra da qarşısında duran vəzifələri layiqincə yerinə yetirəcək, bunun üçün bütün bilik və bacarığını əsirgəməyəcək, məsul olduğu sahələrdə daha böyük uğurlar qazanacaq.

60 illik yubileyin mübarək, dəyərli həmkar!

Eldar İbrahimov,
Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, i.e.d., professor

Ziyad Səmədzadə, Milli Məclisin İqtisadi Siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik

Beynəlxalq Bankın reytinqləri yüksəlməyə başladı

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI

Azərbaycan Beynəlxalq Bankının öhdəliklərinin könüllü restrukturizasiyası planı xarici kreditorlar tərəfindən qəbul edildikdən sonra Moody's beynəlxalq reytinq agentliyi bankın reytinqlərinə yenidən baxaraq bəzi reytinqləri yüksəldib.

Bankın Mətbuat xidmətindən daxil olmuş məlumata görə, xarici və yerli valyutada uzunmüddətli depozit reytinqi Caa2-dən Caa1 səviyyəsinə artırılıb. Xarici valyutada qorunmayan borclar reytinqi Caa3 səviyyəsindən Caa2-ə qaldırılıb.

Bankın kredit ödəmə qabiliyyətinin baza səviyyəsi (Baseline Credit Assessments - BCA) də "ca" pilləsindən "caa3" pilləsinə qədər yüksəlib. Eyni zamanda, qarşı tərəf kredit riski qiymətləndirməsi (CRA) Caa1 (cr) səviyyəsindən B3 səviyyəsinə yüksəlib. Bankın uzunmüddətli depozit reytinqinə pozitiv proqnoz verilib.

Agentliyin açıqlamasında bildirilib ki, yeni reytinqlər restrukturizasiya planı üzrə səsvermənin 18 iyulda elan olunmuş nəticələrinə əsaslanır. Reytinqlərdə baş verən müsbət dəyişikliklər restrukturizasiya prosesi başa çatandan sonra bankın maliyyə durumunun yaxşılaşacağı ilə bağlı Moody's-in gözləntilərini əks etdirir. Agentliyin proqnozlarına görə, öhdəliklərin restrukturizasiyası planının bu şəkildə icrası bankın maliyyə dayanıqlığını, kapital mövqeyini gücləndirəcək və aktivlərinin keyfiyyətini yaxşılaşdıracaq. Öhdəliklərin könüllü restrukturizasiyası ilə yanaşı, problemli aktivlərin bankın balansından çıxarılması da aktivlərinin keyfiyyətinin yaxşılaşmasına kömək göstərəcək. Moody's ekspertlərinin rəyinə görə, problemli aktivlərin transferi bu ilin sonuna qədər başa çatacaq. Nəticədə, Bankın birinci dərəcəli kapitalının 13% ətrafında olması ehtimal edilir. Agentlik bankın 2018-ci ili mənfəətlə başa vuracağını gözləyir. Mənfəətlilik səviyyəsi, ölkənin makroiqtisadi durumundan da çox asılı olacaq.

Moody's Azərbaycan hökumətinin böyük ehtimalla banka dəstəyi davam etdirəcəyini gözləyir. Bu gözlənti bankın səhmlərinin 95%-nin dövlətə məxsus olması, ABB-nin ölkənin ən böyük bankı olması və bank bazarındakı aktivlərin əhəmiyyətli hissəsini bölüşməsi kimi amillərlə əsaslandırılıb. Eyni zamanda, hökumətin bankda vəsait yerləşdirmiş əmanətçilərə və digər müştərilərə dəstək verdiyi xüsusi qeyd edilib. Belə ki, öhdəliklərin restrukturizasiyası prosesinin ABB-də depoziti olan müştərilərə heç bir təsiri olmayıb.

Rəydə o da göstərilib ki, restrukturizasiya planı başa çatdıqdan sonra Moody's reytinqlərə yenidən baxacaq və gələcək durumuna uyğun olaraq bankın reytinqlərini yüksəldəcək.

Dövlət bankında 1,4 milyon manat xalis mənfəət!

Azər Türk Bankın məcmu kapitalının adekvatlığı 40 faizi ötmüşdür.

Dövlət bankı Azər Türk Bankın mətbuat xidməti bildirir ki, 30 iyun 2017-ci il tarixinə Bankın aktivləri 311 milyon 623 min manat səviyyəsində olmuşdur. Kredit portfelinin həcmi 126,7 milyon manat təşkil etmişdir. Bankın məcmu kapitalı, tutulmalardan sonra, 54 811 min manat, məcmu kapitalın adekvatlıq əmsalı 40,84 faiz səviyyəsindədir.

Ümumi gəlirlər 12 milyon 544 min manat, xərclər 11,1 milyon manat təşkil etmiş, bankın xalis mənfəəti 1 milyon 430 min manatdan çox olmuşdur. Bankın depozit potfeli 206,3 milyon manat həcmindədir. Azər Türk Bankın nizamnamə kapitalı 50 milyon manat səviyyəsindədir.

22 ildir fəaliyyət göstərən "Azər Türk Bank" ASC-nin səhmlərinin 75 faizi Azərbaycan dövlətinə məxsusdur.

"Bank Respublika" qeyri-faiz gəlirini artırır

"Bank Respublika" ASC 2017-ci ilin birinci yarısına dair gəlir və mənfəətini açıqlayıb.

2017-ci ilin yanvar-iyun dövründə "Bank Respublika"nın cəmi gəlirləri 31 milyon 851 min manat təşkil edib, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 20% azdır. "Bank Respublika" ASC 2017-ci ilin birinci yarımilində 39,8 milyon manat cəmi gəlir əldə etmişdi.

Diqqəti çəkən, Bankın qeyri-faiz gəlirlərinin artmasıdır. Ötən ilin ilk 6 ayında 13 milyon manat qeyri-faiz gəliri əldə etmiş Bank, bu ilin anoloji dövründə 15 milyon 948 min manat qeyri-faiz gəliri əldə edib. Müqayisə edilən dövrdə faiz gəliri 26 milyon 786 min manatdan 15 milyon 903 min manata geriləyib. Səbəb müştərilərə verilən kreditlərin azalmasıdır.

Cəmi gəlirlərdən faiz və qeyri-faiz xərcləri çıxıldıqdan sonra 4 milyon 759 min manat əməliyyat mənfəəti qalıb. Bank ötən ilin birinci yarısında 12,9 milyon manat əməliyyat mənfəəti əldə etmişdi.

"Bank Respublika" aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına 5 milyon 342 min manat ayırdığından 2017-ci ili 583 min manat zərər ilə yarılayıb. Bank 2016-cı ilin birinci yarısında ehtiyatlara 28 milyon 647 min manat ayırmış və 2016-nı 15 milyon 747 min manat zərər ilə yarılamışdı. 2016-cı ildə Bankın zərəri isə 34 milyon 609 min manat olmuşdu.

BANKDA SABİTLƏŞMƏ ƏLAMƏTLƏRİ

Ehtiyatlara ayırmanın 5,4 dəfə, zərərin isə 30 dəfə azalması "Bank Respublika"nın sabitləşdiyinə işarədir. Banklar verilmiş kreditlərdə ehtimal olunan itki məqsədilə gəlirlərinin böyük hissəsini ehtiyatlara ayırırlar. Əgər verilmiş kreditlərin bir hissəsi geri qayıtmasa, Bank itirdiyi vəsaitini ehtiyatları hesabına bərpa edir.

30 İyun 2017-ci il tarixinə "Bank Respublika" ASC 779 milyon 396 min manat cəmi aktivlərə, 732 milyon 503 min manat cəmi öhdəliklərə və 46 milyon 893 min manat cəmi balans kapitalına malik olub. Ötən ilin sonunda Bank, 898 milyon 514 min manat cəmi aktivlərə, 858 min 520 min manat cəmi öhdəliklərə və 39 milyon 994 min manat cəmi balans kapitalına malik idi.

PROBLEMLİ KREDİTLƏR AZALIB

Ötən ili sonu ilə müqayisədə bu ilin birinci yarısında kredit portfeli 271 milyon 116 min manatdan 245 milyon 357 min manata, depozit portfeli isə 572 milyon 736 min manatdan 470 milyon 563 min manata düşüb. Müştərilərə verilmiş kreditlərin 32 milyon manatının və ya təxminən 13%-nin ödəmə vaxtı keçib. Bank kreditlər üzrə 18 milyon 589 min manat adi və məqsədli ehtiyat yaradıb. Qeyd edək ki, ötən ilin birinci yarısının sonunda "Bank Respublika"a 60,3 milyon manat ödəmə vaxtı keçmiş kreditə malik idi. Qısası, illik müqayisədə Bankda ödəmə vaxtı keçmiş kreditlər 2 dəfəyə yaxın azalıb.

KAPİTALI TƏLƏBƏ CAVAB VERİR

30.06.2017-ci il tarixində "Bank Respublika" ASC 51 milyon 364 min manat məcmu kapitala malik olub. Bu da 50 milyon manat olan məcmu kapital tələbindən çoxdur.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.

GƏNCƏ QƏDİMLİKLƏ MÜASİRLİYİ ÜNİKAL VƏHDƏTDƏ QOVUŞDURAN ŞƏHƏRDİR

Gəncə bu gün, sözün əsl mənasında, inkişaf və yüksəliş illərini yaşayır. Regional müstəvidə yaxşı tanınan bu qədim şəhərin şan-şöhrəti hər gün artmaqdadır. Məhz bunun nəticəsidir ki, 2016-cı ildə Gəncə Avropanın Gənclər Paytaxtı seçildi, bu il isə MDB-nin Mədəniyyət Paytaxtı elan edildi. Bunların hamısı təbiidir. Ulu Nizamidən üzü bəri, görün, Gəncə bəşəriyyətə hansı şəxsiyyətləri bəxş edib. Tarix boyu başı çox bəlalar çəkib, sinəsi qanlı hərb meydançalarına çevrilib. Lakin heç zaman çökməyib, tarix səhnəsindən silinməyib, yenidən dirçəlib, inkişaf edib. Adı bir neçə dəfə dəyişdirilib, müstəqillik qazandıqdan sonra öz əzəli-əbədi adına qovuşub. Gəncə elə bir strateji coğrafi məkanda yerləşir ki, onun çiçəklənməsi və yüksəlişi ölkəmiz üçün çox vacibdir. Son 10-12 il ərzində həyata keçirilən köklü tədbirlər nəticəsində Gəncə tanınmaz dərəcədə dəyişib, müasirləşib, yeniləşib. Şəhəri iki yerə bölən Gəncə çayının sağ və sol sahili boyunca görülən işlərin misli-bərabəri yoxdur. Vaxtilə həmin ərazilər bərbad vəziyyətdə idi. Bu gün çayın sahilləri yüksək standartlar səviyyəsində yenidən qurulub. Ulu öndər Heydər Əliyevin adını daşıyan istirahət parkı cənnət-məkana çevrilib. Girişdə «Zəfər tağı» ucaldılıb ki, buradan açıq seyrangahda parkın ümumi mənzərəsini və füsunkar təbiətini seyr etmək olur. Park gecə-gündüz qonaq-qaralıdır, axşamüstü parkı gəzərkən Türkiyədən, Gürcüstandan, Çindən, Avropa ölkələrindən turistlərlə rastlaşırsan. Burada böyük bir göl yaradılıb, ətrafına nadir ağaclar, dekorativ kollar əkilib, yaraşıqlı oturacaqlar quraşdırılıb. Dünyanın ən böyük beş parkı arasında özünə yer alan park-kompleksin ümumi uzunluğu 354 metr, eni 170 metrdir. Gölün dərinliyi 3 metr təşkil edir. Gölə yapon sazanı buraxılıb, buraya təşrif buyuran mütləq ayaq saxlayıb balıqları seyr edir. 2016-cı ildə şəhərdə Avropa Gənclər Parkı salınmış, mərkəzdə hündürlüyü 5 metr olan əzəmətli «Gəncliyin qanadları» abidəsi ucaldılmışdır. Ulu öndər Heydər Əliyevin çox sevdiyi «Xan bağı» şəhərin mərkəzində yerləşir. Gəncənin nəbatat bağı sayılan bu parkda nadir bitkilər, o cümlədən Himalay sidri, yapon əzgili, Eldar şamı, Hind qozu, bambuk və s. ağaclar mühafizə edilir. Yeddi hektar ərazini əhatə edən bu parkı gəzərkən cənab Prezident İlham Əliyev demişdir: «Xan bağı nəinki Gəncə üçün, bütün Azərbaycan üçün çox əziz və doğma yerdir. Sadəcə olaraq gəzinti üçün bağ deyil, bizim milli tarixi sərvətimizdir». Gəncə qədim şəhərdir, burada yaşı 4 min ili keçmiş milli-mədəniyyət abidələri vardır. Həmin abidələrin bərpası, yenidən qurulması mürəkkəb proses olsa da, bu işlərin öhdəsindən yüksək şəkildə gəlinib. Bakı istiqamətindən şəhərə daxil olarkən qarşıda möcüzəli bir aləm açılır. Gəncə qapıları rəmzi olaraq insanı orta əsrlərə çəkib aparır. Hündürlüyü 65 metr olan Dövlət Bayrağı, magistral yolun sağ və sol istiqamətləri ilə sıralanan yaşıllıq zolaqları, çəmənliklər bu yerlərə xüsusi görkəm və əzəmət bəxş edib. Gəncə çayının sahil zolaqlarında bulvar kompleksi xüsusi zövqlə yaradılıb. Burada milli memarlığın ən gözəl nümunələri öz əksini tapıb. Bulvar ərazisində geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıqlar salınıb, gül-çiçək kolları əkilib. İstirahət üçün oturacaqlar, onların qarşısında yaradılan fəvvarələr ərazinin füsunkarlığını daha da artırıb. Park-bulvar həmişə qonaqlı-qaralıdır. Buraya təşrif buyuran hər kəs yaradılan şəraitdən zövq alır, məmnunluq hissləri keçirir və dərk edir ki, yüksəliş və tərəqqi mərhələsinə qədəm qoyan bir məkana düşüb. Cənab Prezident İlham Əliyev cari ilin fevral ayında «Gəncəçay» Park-bulvar kompleksi ilə tanış olarkən burada yaradılan şəraitdən böyük razılıq ifadə edib. İnşasına 2014-cü ildən başlanılan kompleksin uzunluğu 1,2 km, ümumi sahəsi 34 hektardır. Kompleksdə geniş işıqlandırma sistemi yaradılıb, 15 fəvvarə və müxtəlif kompozisiyalı 10 heykəl qurulub. Çayın məcrasının hər iki



tərəfində ümumi uzunluğu 2,4 km olan istinad divarları tikilib. Burada Bayraq Meydanı, «Əli və Nino» kompleksi, Mətbuat evi, Kitab evi, Uşaq Əyləncə və Ticarət Mərkəzi, altımərtəbəli və yeddimərtəbəli üç yaşayış binası, müasir tipli üç kafe, restoran, kinoteatr, açıq havada attraksionlar və digər sosial obyektlər inşa edilib. Bulvarda, həmçinin 1,7 km uzunluğunda velosiped yolu və iki velosiped dayanacağı yaradılıb. Qurban Səidin «Əli və Nino» əsərinin motivləri əsasında hündürlüyü 3,5 metr olan monumental heykəl ucaldılıb. Çin, Fransa və Gürcüstandan fərqli olaraq burada süni effekt verilməklə sevgililər simvolik olaraq səmada uçur, ətrafda yaradılan 3 fəvvarə isə vizual olaraq göz yaşlarını xatırladır. Abidə Şərq üslubunda olsa da, modern formada yaradılıb. Adı çəkilən unikal layihələrin ərsəyə gəlməsinə sovetlər dönəmində azı 10-15 il lazım gəlirdi. Cəmi iki il ərzində bu möhtəşəmlikdə işlər görülüb. Özü də təkcə bu yox ki, şəhərin hər bir guşəsində abadlıq-quruculuq işləri həyata keçirilir. Belə miqyasda işlərin eyni vaxtda görülməsi o qədər də asan gəlməsin.

Gəncə çayının sahilləri vaxtilə daşlı-kəsəkli, yöndəmsiz ərazilər idi. Çayın üstündəki körpünü keçərkən göz işlədikcə miskin bir mənzərə görünürdü. İndi bu yerlər gülüstana çevrilib, gülə-çiçəyə qərq olub. Bu gün Gəncəyə dünyanın dörd bir yanından turistlər, qonaqlar gəlirlər. Hər gələn abad şəhər, gülərüz insanlar görür və geri dönərkən özləri ilə xoş xatirələr aparırlar. Məhz bunun nəticəsidir ki, son bir ildə xarici turistlərin sayı 4 min nəfəri keçib. Gəncə, demək olar ki, hər gün dəyişir, bir yenilik təqdim edir. Ən möhtəşəm layihələrdən biri yekunlaşma mərhələsindədir. Belə ki, Gəncə Dövlət Filarmoniyası və Gəncə MALL Ticarət Mərkəzi, müasir tipli yeraltı keçidlər, modern üslubda tikilən beşulduzlu otel cari ildə istifadəyə veriləcək. Gəncə Dövlət Filarmoniyası şəhərin memarlıq ansamblına yeni bir çalar qatacaq. 1,4 hektar sahədə inşa edilən bu möhtəşəm kompleksdə 1200 nəfərlik konsert zalı, iki kinoteatr, açıq havada estrada meydanı, kafe, restoran, 200 avtomobil üçün yeraltı dayanacaq və digər xidmət sahələri ən yüksək standartlara cavab verəcək. Tikinti işlərinin əsas hissəsi icra edilib, elektrik və daxili su xətləri çəkilib. Yarımstansiya, qazanxana və nasosxana tikilib, havalandırma sistemi qurulub. İki il öncə inşasına başlanılan 80000 kvadratmetr ərazini əhatə edən Gəncə MALL-ın tikintisi ilə bağlı işlərin 90 faizi yekunlaşıb. Tikintidə 700 nəfər işçi çalışır. Mərkəz fəaliyyətə başladıqdan sonra burada 2000-dən çox yeni iş yerləri açılacaq. 8 mərtəbəli Gəncə MALL-ın 3 mərtəbəsi yeraltı dayanacaqdır. Burada əyləncə mərkəzləri, supermarket, kinoteatr fəaliyyət göstərəcək, alıcılara brend mallar təklif olunacaq. Bundan başqa, şəhərin mərkəzində - Heydər Əliyev prospekti ilə Həsən Əliyev küçəsinin kəsişməsində avtomobillərin və piyadaların hərəkət etməsi üçün mövcud olan çətinliklər aradan qaldırılacaq. Layihəyə əsasən, üç çıxışı olan keçid Gəncə Dövlət Universitetinin əsas korpusunu, Şah Abbas məscidi və Gəncə MALL Ticarət Mərkəzini birləşdirəcək. Keçidlərin tikintisində milli memarlıq elementlərindən geniş istifadə olunmaqla Qərb memarlığına daha çox üstünlük verilib. Gəncədə Heydər Əliyev prospekti ilə Cavad xan küçəsinin kəsişməsində daha bir yeraltı keçid tikilir. Keçidin Cavad xan küçəsi ilə Gəncə Dövlət Filarmoniyası binasının qarşısına çıxışları olacaq. Bununla şəhərdəki yeraltı keçidlərin sayı 5-ə çatacaq. Gəncənin memarlıq ansamblına gözəllik qatan layihələrdən biri də Heydər Əliyev prospekti ilə Cavad xan küçəsinin kəsişməsində tikilən 5 ulduzlu oteldir. 7 mərtəbəli otelin ümumi sahəsi 2800 kvadratdır və 33 otaqdan ibarətdir. Oteldə həmçinin konfrans zalı, kafe-bar, restoran fəaliyyət göstərəcək. Universal infrastruktura və cəlbedici görünüşə malik olan bu otel cari ilin sonunadək istifadəyə veriləcək və öz arxitekturasına, dizayn və interyerinə görə şəhərə bir yenilik gətirəcək. Bundan başqa, Gəncə şəhərinə yağan yağış sularının ötürülməsi üçün xətlərin çəkilməsinə də başlanılıb. Heydər Əliyev prospekti ilə Nizami prospektində işlər sürətlə davam etdirilir. Sel və yağış suları borular vasitəsi ilə Gəncə çayına axıdılacaq, eyni zamanda, həmin prospektlərdə asfalt qatı daş örtüklə əvəzlənəcək. Bir sözlə, şəhərin sosial infrastrukturu əsaslı şəkildə dəyişdirilir, yüksək standartlar səviyyəsinə gətirilir. Eyni zamanda, Gəncə şəhərinin dövlət dotasiyası almayan şəhərlərdən birinə çevrilməsi qarşıya ciddi vəzifələr qoyur. Şəhərin sənaye potensialı möhkəmlənir, iri layihələrin icrası uğurla davam etdirilir. Yaxın vaxtlarda bir sıra iri sənaye müəssisələrinin, o cümlədən poladəritmə, kərpic zavodlarının və digər obyektlərin işə salınması gözlənilir. Bütün bunlar yüksəliş yolunda inamla irəliləyən Gəncənin sosial-iqtisadi həyatında yeni səhifə açacaqdır.

Zülfü İLYASOV,
bölgə müxbiri

"AtaSığorta" ASC xidmət şəbəkəsini genişləndirir

24 iyul 2017-ci il tarixində "Excelsior Hotel & Spa Baku" otelində "AtaSığorta" ASC brifinq keçirmişdir. Tədbirdə "AtaSığorta" ASC İcbari Sığorta şöbəsinin müdiri Fariz Hacızadə 2017-ci ilin 6 ayı ərzində şirkətin fəaliyyəti ilə bağlı iştirakçılara məlumat vermişdir. O, bildirmişdir ki, xidmət şəbəkəsinin genişlənməsi "AtaSığorta" ASC-nin əsas inkişaf prioritetlərindən biridir. Yeni açılmış filial və nümayəndəliklər Bakı şəhəri və bölgələrdə yaşayan əhalinin bütün sığorta xidmətlərindən rahat şəkildə faydalanmasını, baş verən sığorta hadisələri zamanı isə müştərilərə peşəkar və operativ xidmətin göstərilməsini təmin edəcəkdir. Bütövlükdə, "AtaSığorta" ASC-nin xidmət şəbəkəsinə 50-dən artıq filial, nümayəndəlik və satış ofisləri daxildir. "AtaSığorta" ASC müştərilərinə 24 könüllü və 4 icbari sığorta növü üzrə sığorta xidmətləri göstərir. Şirkətin təqdim etdiyi əsas sığorta növləri arasında əmlak sığortası, nəqliyyat vasitələrinin sığortası, nəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari və könüllü sığortası, sürücü və sərnişinlərin bədbəxt hadisələrdən sığortası, üçüncü şəxslər qarşısında mülki məsuliyyətin sığortası, yüklərin sığortası, inşaat sığortası, işəgötürənin məsuliyyətinin sığortası, tibbi sığorta, fərdi qəza sığortası və s. vardır.

Tədbirin sonunda Fariz Hacızadə iştirakçıların suallarını cavablandırmışdır.

Azercell-dən məktəblilər üçün pulsuz "Coding Kids – Summer IT School" layihəsinə başlanılıb

Azercell Telekom MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin PAŞA Bankın dəstəyi ilə həyata keçirdiyi "Coding Kids – Summer IT School" layihəsinin dərsləri artıq başlayıb. Proqram çərçivəsində 170 müraciət qeydə alınıb və imtahanlardan uğurla keçən 50 məktəbli layihədə iştirak etmək hüququ qazanıb.

Məktəblilər üçün nəzərdə tutulan "Coding Kids – Summer IT School" layihəsi uşaqlara oyun və əyləncədən əlavə, kompüter və telefonlardan istifadənin digər faydalı imkanları olduğunu izah edir.

Mərkəzin təqdim etdiyi kodlaşdırma təlimləri vasitəsilə uşaqlar yeni dünya ilə tanış olmağa başlayıblar.

Uşaqlara 6 həftə ərzində İnformasiya Texnologiyalarına və Kompüter elmlərinə giriş, Kodlaşdırma Texnikası, Mobil Tətbiqlərin Yazılması, Verilənlər Bazası, C++ Proqram dilinin öyrənilməsi və digər maraqlı mövzular tədris edilir.

Bu layihə uşaqların inkişafı üçün əvəzedilməz biliklər və bacarıqlar əldə etməyə imkan verir.

Eyni zamanda, 17-21 iyul tarixlərində Mərkəzi Bankla birlikdə uşaqlar üçün "Sahibkarlıq və startup nədir?" mövzusunda info sessiya da təşkil edilib. Tədbirdə uşaqlara Sahibkarlıq və Startuplar barəsində məlumat verilib. Həmçinin, Barama mərkəzinin uğurlu startapçıları –"Technote" media platformasının təsisçisi Fərid Pərdəşünas və "Wake Me Up" layihəsinin rəhbəri Şahin Xəlilov öz layihələrini təqdim edərək, uşaqlara sahibkar olmağın sirlərindən danışıblar.

Əlavə olaraq görüş iştirakçıları maraqlı tapşırıqları yerinə yetirərkən öz ideyalarını da təqdim ediblər. Sonda yay məktəbinin iştirakçıları sertifikatlarla təltif olunublar. Məlumat üçün bildirək ki, "Coding Kids – Summer IT School" layihəsi 9-11 və 12-15 yaşlı məktəblilər üçün nəzərdə tutulub.

Dərslər həftədə 2 dəfə Barama İnnovasiya və Sahibkarlıq Mərkəzində interaktiv tədris metodları əsasında təlimçi Günay Kazımzadə tərəfindən ödənişsiz aparılır.

"Bakcell"in dəstəyi ilə "Təhsil Avtobusu-2017" Yay Məktəbi başlayır

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkətinin dəstəyi və Azərbaycan Respublikası Təhsil Nazirliyi, "ENGİN" şirkəti və Kapital Bankın təşkilatçılığı ilə "Azərbaycan üçün Öyrət'' təhsil proqramı çərçivəsində 24-31 iyul 2017-ci il tarixində "Təhsil Avtobusu - 2017" Yay Məktəbi keçiriləcək. Yay məktəbinin məqsədi bölgələrdə yaşayan və ya təhsil alan orta ixtisas və ali təhsil müəssisələrinin akademik göstəriciləri orta olan tələbələrin karyera inkişaflarına təsir etmək, onlara informasiya texnologiyalarından karyera inkişafında istifadədə, iş seçimi və axtarışında kömək edəcək bilik və bacarıqlar vermək, eləcə də həyata fərqli baxış və dünyagörüşünün formalaşmasına stimul verməkdir.

Yay Məktəbi çərçivəsində bu istiqamətlərdə dərslər, fərdi inkişaf təlimləri və intellektual yarışlar keçiriləcək. Bakı-Quba-Masallı-Sabirabad-Gəncə-Mingəçevir-Zaqatala-İsmayıllı-Bakı marşrutu üzrə səyahət edəcək "Təhsil Avtobusu - 2017" Bakcell şirkəti tərəfindən təchiz edilmiş yüksəksürətli internetlə təmin olunacaq.

Qeyd edək ki, "Azərbaycan üçün Öyrət'' Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasını dəstəkləyərək, keyfiyyətli təhsil üçün bərabər imkanların yaradılmasını təmin edən təhsil proqramıdır.

Xatırladaq ki, Bakcell, eyni zamanda, Korporativ Sosial Məsuliyyət proqramı çərçivəsində digər qurumlarla da uğurlu əməkdaşlığını davam etdirir.

Belə ki, şirkət UAFA (Azərbaycana Birgə Yardım təşkilatı) və "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası İctimai Birliyi tərəfindən icra edilən müxtəlif layihələrə öz dəstəyini göstərməklə xüsusi qayğıya ehtiyacı olan uşaqların həyatında müsbət dəyişikliklər yaratmağa çalışır.

Bakıda Fransanın yeni qatarlarına bilet satışı başlanıb

"RailEurope" şirkətinin Azərbaycanda satış üzrə baş agenti olan "SI LuxuryTravel" şirkətinin ofislərində Fransanın yeni dəmir yolu xətlərinə bilet satışı başlanıb.

İyulun 2-dən işə salınan sürət xətləri Fransa paytaxtını ölkənin regionlarında ən məşhur şəhərlərlə əlaqələndirir və kombinasiya olunmuş tur həvəskarlarına xeyli vaxta qənaət etməkdə kömək edir. Beləliklə, indi Parisdən Fransanın cənub-qərbində yerləşən Bordoya cəmi 2 saata çatmaq olar. Bu, köhnə xətlərdəki reyslərlə müqayisədə 1 saat 10 dəqiqə azdır. Sutka ərzində müvafiq istiqamətdə 27 reys həyata keçirilir.

Parisdən Tuluza şəhərinə yeni xətlər sayəsində (gündə 6 reys) 4 saat 8 dəqiqəyə çatmaq olar, halbuki əvvəllər bu yola təxminən beş saat yarım vaxt sərf olunub.

Nəhayət, Parisdən Puatyeyə 1 saat 18 dəqiqəyə çatmaq olar. Bu şəhərə gündə 16 reys işləyir.

"Excelsior Hotel & Spa Baku" otelində "AtaHolding" Şirkətlər Qrupunun 2017-ci il 6 aylıq fəaliyyətinə həsr olunmuş brifinq keçirilib

Brifinqdə "AtaHolding" Korporativ kommunikasiyalar şöbəsinin rəisi Dilarə Zamanova jurnalistlərə bu ilin 6 ayı ərzində PR üzrə görülən işlərin hesabatını təqdim edib.

Bildirib ki, bu müddət ərzində "AtaHolding" Şirkətlər Qrupunun fəaliyyəti ilə bağlı mətbuatda 42 press reliz işıqlandırılıb. Ümumilikdə isə mediada 3 442 məlumat öz əksini tapıb. "Media Consulting Sevice" şirkətinin apardığı monitorinqə görə, "Excelsior Hotel Baku" oteli 2017-ci ilin yanvar, mart, aprel, may və iyun aylarında mətbuatda işıqlanan məlumatların sayına görə birinci yerdə qərarlaşıb.

D.Zamanova qeyd edib ki, bu müddət ərzində AtaTravel MMC-nin sponsorluğu ilə Travel X tədbiri keçirilib. Tədbirin əsas məqsədi insanların aktiv səyahət etməyə həvəsləndirməkdir. «Excelsior Hotel Baku» otelində "Musiqi Bayramı 2", "Summer Party" tədbirləri, "AtaHolding" Şirkətlər Qrupunun əməkdaşlarından ibarət komandalar arasında "Nə?, Harada?, Nə Vaxt" oyunu keçirilib.

Bu il "Excelsior Hotel & Spa Baku" oteli və Qərb Universiteti arasında əməkdaşlıq müqaviləsinin imzalanmasına həsr edilmiş tədbir keçirilib. Əməkdaşlıq müqaviləsi çərçivəsində Qərb Universitetinin "İşgüzar-inzibatçılıq" fakültəsi tələbələri III kurs istehsalat və IV kurs diplomqabağı təcrübələrini "Excelsior Hotel & Spa Baku" otelinin departamentlərində keçə biləcəklər. Tədbir facebook səhifəsində canlı yayımla göstərilib.

25 yanvar 2017-cı il tarixində "Excelsior Hotel Baku" otelində AtaHolding-in əməkdaşı Elmədin Hüseynov tərəfindən tələbələr üçün "Müəssisələrdə idarəetmənin səmərəliyinin artırlması, menecmentə sistemli yanaşma" mövzusunda təlim keçirilib.

8 Mart Beynəlxalq Qadınlar Gününə həsr edilmiş breyin rinq yarışı keçirilib. 14 aprel 2017-ci il tarixində "Excelsior Hotel Baku" otelinin təşkilatçılığı ilə "Baku Fashion 2017" tədbiri keçirilib.

"AtaTexnologiya" MMC-nin baş direktoru Mais Yusifovun "Azərbaycan yüksək texnologiyalı məhsul və xidmətlərin istehsalçısı və ixracatçısı olan ölkəyə çevrilir" adlı müsahibəsi Prezident Aparatı yanında Kütləvi İnformasiya Vasitələrinə Dəstək Fondunun "Azad sahibkarlığın təşviqi" layihəsi çərçivəsində "İqtisadiyyat" qəzetində dərc edilib.

D.Zamanova bildirib ki, "AtaSığorta" ASC İcbari Sığorta departamentinin rəhbəri Fariz Hacızadənin "Karyera yolçuluğuna 11-ci sinifdən başlayan sığortaçı" adlı müsahibəsi 14 aprel 2017-ci il tarixində "Kaspi" qəzetinin "Uğur" hekayəti rubrikasında, "Sia", "Trend", "Finance Time" və "365.az" agentliklərində dərc olunub.

"Excelsior Hotel Baku" otelinin baş meneceri Turhan Poyrazın "Lüks otel üçün önəmli olan - keyfiyyət standartlarının davamlılığını saxlamaqdır" adlı müsahibəsi Prezident Aparatı yanında Kütləvi İnformasiya Vasitələrinə dəstək Fondunun "Azad Sahibkarlığın təşviqi" layihəsi çərçivəsində "İqtisadiyyat" qəzetində dərc olunub.

Dilarə Zamanova həmçinin qeyd edib ki, "AtaHolding" Şirkətlər Qrupu öz ənənəsinə sadiq qalaraq bu il də jurnalislərə üçün müxtəlif tədbirlərin keçirilməsini planlaşdırır. Belə ki, ilin sonuna kimi jurnalistlər arasında müxtəlif idman yarışlarının keçirilməsi, press-turların təşkil edilməsi nəzərdə tutulub.

2017-ci ilin ilk 6 ayında uşaqlara qarşı 270 zorakılıq halı qeydə alınıb

Azercell Telekom MMC-nin dəstəyi ilə fəaliyyət göstərən "Azərbaycan Uşaq Qaynar Xətt" xidməti 2017-ci ilin ilk 6 ayı üzrə hesabatını açıqlayıb. Yanvar-iyun ayları ərzində "Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinə ümumilikdə 1458 zəng daxil olub, onlardan 53-ü hüquqi, 28-i psixoloji, 15-i səhiyyə, 350-si təhsil, 634-ü sosial, 18-i zorakılıq, 5-i fiziki, 40-ı etinasızlıq, 315-i də digər müraciətlərlə bağlı olub.

Ümumilikdə, qəbul edilən zənglərin 667-si şəhərdaxili, 781-i mobil zəng, 10-u mobil sms, 6-sı isə elektron məktub şəklində daxil olub.

Hesabatda bildirilir ki, fəaliyyət göstərdiyi gündən indiyə qədər daxil olan müraciətlərin 1257-si psixoloji, fiziki, cinsi zorakılıqla bağlı olub və bu göstəricinin 270-i 2017-ci ilin ilk 6 ayı ərzində qeydə alınıb. Onu da qeyd edək ki, zorakılığa məruz qalanların 189-u qız, 81-i oğlandır. "Gəncə Regional Uşaq Qaynar Xətt" xidməti isə 2017-ci ilin yanvar-iyun ayları ərzində 434 zəng qəbul edib, bunların 369-u şəhərdaxili, 65-i isə mobil zəng vasitəsilə olub.

"Azərbaycan Uşaq Qaynar Xətt" xidməti komandası, eyni zamanda, 6 ay ərzində həyata keçirdiyi tədbirlərlə də diqqət çəkib. Belə ki, onlar "Uşaqlara qarşı zorakılığın aşkarlanması və tibbi-psixoloji yardımın göstərilməsi işinin gücləndirilməsi", "Özünə inam və özgüvən problemləri" və "Aqressiyamızı necə idarə edək?" mövzuları üzrə təlimlər veriblər.

Bakı Bəyannaməsi: "İki ildə bir dəfə Bakı formatında beynəlxalq elmi-praktiki konfrans keçirilsin"

İyulun 14-də Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi, UNEC, Clarivate Analytics (Thomson Reuters), Beynəlxalq Elmi və Texniki İnformasiya Mərkəzinin təşkilatçılığı ilə "Universitetlərdə elmi fəaliyyətin müasir idarəetmə modeli" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib. Konfransda təhsil naziri Mikayıl Cabbarov, UNEC rektoru, professor Ədalət Muradov, Müəllif Hüquqları Agentliyinin sədri, professor Kamran İmanov, İnkişaf etməkdə olan ölkələr üzrə qlobal direktor Viji Krişnan, Beynəlxalq Elm və Texnika İnformasiya Mərkəzinin direktoru Yevqeniy Uqrinoviçlə yanaşı, ABŞ-ın Şimali Karolina Universitetinin professoru, Nobel mükafatı laureatı Aziz Sancar da çıxış edib. Konfransın yekununa dair Bakı Bəyannaməsi qəbul edilib.

"Universitetlərdə elmi fəaliyyətin müasir idarəetmə modeli" mövzusunda keçirilən beynəlxalq elmi-praktik konfransına ictimaiyyətin marağını nəzərə alaraq, Bakı Bəyannaməsini təqdim edirik:

"Universitetlərdə elmi fəaliyyətin müasir idarəetmə modelləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın dünyanın ondan çox ölkəsinin 40-dan yuxarı universitet və elmi təşkilatını təmsil edən iştirakçıları aşağıdakıları bəyan edirlər:

1. Universitetlərdə elmi fəaliyyətin səmərəli idarəedilməsi dayanıqlı inkişaf naminə məhsuldar elmi yaradıcılığın və yüksək dərəcəli tədris fəaliyyətinin ən mühüm şərtidir.

2. Məhsuldar elmi fəaliyyət üçün universitetlər bütün zəruri normativ-hüquqi, maddi, idarəçilik və digər resurslara sahib olmalı, həmçinin milli hökumətlərin dəstəyindən yararlanmalıdırlar.

3. Universitetlərdə elmi fəaliyyətin idarə olunmasının dünya təcrübəsi öyrənilə və ən yaxşı dünya praktikaları isə müasir universitet menecmentinə inteqrasiya oluna bilər.

4. Universitetin elmi fəaliyyəti öz mütərəqqi inkişafı üçün elmi-texniki informasiya və nailiyyətlərin mübadiləsi üzrə geniş beynəlxalq platformanın işlənməsini tələb edir.

5. Dünya səviyyəli tədqiqat universitetlərinə ("research universities") çevrilmək üçün kifayət qədər potensiala malik aparıcı universitetlər qrupunun milli səviyyədə ayırd edilməsinə və elmi fəaliyyəti stimullaşdırmaq üçün onlara effektiv dövlət dəstəyinin göstərilməsinə ehtiyac vardır. Universitetlərin elmi-tədqiqat fəaliyyətinin koordinasiya edilməsi məqsədilə milli səviyyədə universitetlərin elmi fəaliyyətinin idarə olunması üzrə Şuranın yaradılması zəruridir.

6. Elmi tədqiqatların nəticələrinin kommersiyalaşdırılmasına xüsusi diqqət ayrılmalıdır. Qrant maliyyələşdirməsi də daxil olmaqla, kommersiyalaşdırmanın dəstəklənməsi və stimullaşdırılması tədbirləri işlənib hazırlanmalıdır. Əqli mülkiyyət hüquqlarının əldə olunması və onlara sərəncam verilməsi sahəsində, eləcə də startap-şirkətlərin, texnoparkların və innovasiya araşdırmalarının maksimum tez və effektiv şəkildə tətbiq olunmasına şərait yaradan müxtəlif mülkiyyət formalı və digər müəssisələrin yaradılması sahəsində universitetlərin hüquqlarının əhəmiyyətli dərəcədə genişləndirilməsi zəruridir.

7. Elmi fəaliyyətin elmmetrik qiymətləndirilməsinin məsuliyyətli və tarazlı sisteminin, xüsusən də beynəlxalq səviyyədə tanınmış elmi jurnallarda yazılarla ifadə olunmuş yüksək elmi məhuldarlığa nail olunması və elmi fəaliyyətin nəticələrinin patentləşdirilməsi üçün effektiv maddi və təkilati stimulların yaradılması. Dissertasiya işlərinin qiymətləndirilməsi, elmi dərəcə və adların verilməsi zamanı beynəlxalq dərc olunma fəallığı meyarından istifadə edilməsi.

8. Elmi fəaliyyətin yüksək etik norma və qaydalarının hərtərəfli dəstəklənməsi. "Yırtıcı" adlandırılan elmi jurnallarda yazılar da daxil olmaqla elmi fəaliyyətin müxtəlif imitasiya formalar ilə mübariə üzrə dövlət siyasətinin işlənib hazırlanmasına yardım edilməsi. Məsuliyyətli dərcetmə siyasəti üçün etik norma və standartların işlənib hazırlanması.

9. Milli və beynəlxalq elmmetrik cəmiyyətlərin yaradılmasını təşviq etmək, təhsil tədbirləri, konfranslar və ictimai forumlar keçirmək yolu ilə müasir elmmetriyanın inkişafına dəstək vermək. Elmmetriya sahəsində milli və beynəlxalq dövri orqanların yaradılmasına yardım etmək.

10. "Universitetlərdə elmi fəaliyyətin müasir idarəetmə modelləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın Bakı formatı uğurlu hesab edilsin;

11. İki ildə bir dəfə Bakı formatında beynəlxalq elmi-praktiki konfrans keçirilsin. Bu məqsədlə 7 nəfərdən (UNEC rektorunun rəhbərliyi ilə UNEC, Clarivate Analytics, Beynəlxalq elmi və texniki informasiya mərkəzinin hər birindən 2 nümayəndə olmaqla) ibarət daimi işçi qrup yaradılsın.

Fondun Milli Mətbuat Günü münasibətilə keçirdiyi müsabiqənin qalibləri mükafatlandırılıblar

İyulun 22-də "Altun Saray" istirahət mərkəzində Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Azərbaycan Milli Mətbuatının yaranmasının 142 illiyi ilə əlaqədar elan etdiyi fərdi jurnalist yazıları müsabiqəsində birinci yerə layiq görülmüş media nümayəndələrinin mükafatlandırılmasına həsr olunmuş tədbir keçirilib.

Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə dövlət və hökumət təmsilçiləri, Milli Məclisin deputatları, diplomatik korpusların nümayəndələri, aparıcı yerli və xarici kütləvi informasiya vasitələrinin rəhbərləri və müsabiqədə qalib olmuş jurnalistlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Fondun icraçı direktoru Vüqar Səfərli qonaqları və media nümayəndələrini salamlayaraq milli mətbuatın yaranmasının 142-ci ildönümü münasibətilə onlara səmimi təbriklərini çatdırıb. Bu günlərdə Azərbaycan mediasının ikiqat bayram sevinci yaşadığını vurğulayan icraçı direktor iyulun 20-də Azərbaycan Respublikasının Prezidenti cənab Əlham Əliyevin iştirakı ilə jurnalistlər üçün inşa edilmiş binada 255 jurnalistə mənzillərin verilməsini tarixi və əlamətdar hadisə kimi qiymətləndirib. V.Səfərli şəxsi vəsaiti hesabına mənzil almaq imkanında olmayan jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində atılan addımları - iki binanın istifadəyə verilməsini və sayca üçüncü binanın təməlinin qoyulmasını dünyada analoqu olmayan sosial layihə kimi dəyərləndirib. Bu humanist münasibətə görə ölkə jurnalistləri adından dövlətimizin başçısına dərin təşəkkürünü ifadə edən V.Səfərli bildirib ki, bu yüksək etimad və diqqət müqabilində mediamız üzərinə düşən vəzifələri daha səy və məsuluyyətlə həyata keçirəcək, xalqının və dövlətinin maraqlarını layiqincə müdafiə edəcək.

Azərbaycan mətbuatının ölkə rəhbərliyinin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunduğunu vurğulayan icraçı direktor Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 31 iyul tarixli sərəncamı ilə «Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyası"nın təsdiq edildiyini və konsepsiyadan irəli gələn vəzifələrin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradıldığını xüsusi qeyd edib. Vüqar Səfərli Fondun fəaliyyət göstərdiyi 8 ildə mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi və jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırdığı layihələr barədə məlumat verib. Qeyd edib ki, indiyədək çap mediasının maddi-texniki bazasının gücləndirilməsi məqsədilə dövlət büdcəsindən ümumilikdə 31 milyon manatdan çox vəsait ayrılıb.

Vüqar Səfərli Fondun 22 iyul - Milli Mətbuat Günü günü münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri barədə də məlumat verərək bildirib ki, 19 istiqaməti əhatə edən müsabiqəyə 69 kütləvi informasiya vasitəsindən 147 yazı daxil olub. Yazılar 12 ekspert tərəfindən qiymətləndirilib, Müşahidə Şurasının qərarı əsasında daha yüksək bal toplamış 111 nəfər jurnalist qalib elan edilib: "Müsabiqənin şərtlərinə əsasən, hər istiqamət üzrə 6 mükafat nəzərdə tutulub. Ümumilikdə qaliblərin sayı 111 nəfərdir. Birinci yerin sahibi 500, ikinci yeri tutanlar 400, üçüncü yerə layiq görülən jurnalistlər 300 manat məbləğində mükafatla təltif ediliblər. Bu gün isə biz müsabiqədə birinci yeri tutmuş jurnalistləri mükafatlandıracağıq".

Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənov tədbirdə çıxış edərək bildirib ki, builki bayram jurnalistlər üçün ikiqat əlamətdardır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin jurnalistlərlə görüşünün uzun müddət xatırlanacağını vurğulayan Əli Həsənov deyib ki, dövlətimizin başçısının proqram xarakterli çıxışı həm Azərbaycan Mətbuat Şurasının, həm jurnalistlərin, redaksiyaların, ümumilikdə, Azərbaycan jurnalistikasının gələcək fəaliyyətinin təməl prinsiplərini təşkil edir. Qeyd olunub ki, dövlətimizin başçısı həmin görüşdə milli jurnalistikamızın inkişafının əsas istiqamətləri, milli maraqların qorunması ilə bağlı dövlətin yürütdüyü siyasətə dəstək verilməsi, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması və digər mühüm məsələlərlə bağlı dəyərli tövsiyələr verib. Azərbaycan mediasındakı bütün sağlam jurnalistlər Prezident İlham Əliyevin bu tövsiyələrini birmənalı şəkildə qəbul edib və onları əsas prinsip kimi öz fəaliyyətlərində nəzərə alırlar.

Milli mətbuatın 142-ci ildönümü ərəfəsində 255 jurnalistin yeni mənzillərlə təmin olunduğunu vurğulayan Əli Həsənov bildirib ki, bu hadisənin sevincini onlardan daha çox bu nəcib təşəbbüsün müəllifi Azərbaycan Prezidenti İlham Əliyev yaşayıb.

Azərbaycan mətbuatının yaranmasının 142-ci ildönümünün əlamətdar hadisələrlə müşayiət olunduğunu qeyd edən Əli Həsənov deyib: "Prezident İlham Əliyev jurnalistlər üçün üçüncü binanın təməlini qoydu. Həmin binanın inşasının başa çatdırılması üçün dövlətimizin başçısı maksimum üç il vaxt verdi. Çalışacağıq ki, həmin bina iki ilə hazır olsun. Əgər bu, mümkün olmasa, bina 2020-ci ildə istifadəyə veriləcək".

Azərbaycanda əsaslı iqtisadi islahatların aparılması, qeyri-neft sektorunun inkişafı, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması, yoxsulluğun, işsizliyin tamamilə aradan qaldırılması istiqamətlərində Prezident İlham Əliyevin rəhbərliyi ilə genişmiqyaslı fəaliyyətin həyata keçirildiyini bildirən Əli Həsənov deyib: "Azərbaycan dövlətinin sosial sahədə nəzərdə tutduğu proqramların, layihələrin heç biri təxirə salınmayıb. Son dövrdə qaçqınların və məcburi köçkünlərin problemlərinin həllində Birinci vitse-prezident xanım Mehriban Əliyeva başda olmaqla ciddi fəaliyyət həyata keçirilir. Ümumiyyətlə, son dövrdə ölkəmizdə həyata keçirilən təşəbbüslər Azərbaycan mediası tərəfindən birmənalı şəkildə müsbət qarşılanır, dəstəklənir. Azərbaycan Prezidentinin siyasətinin təməlində Azərbaycan xalqı dayanır. Azərbaycan dövləti xalqın iradəsinə söykənərək bütün sahələr üzrə uğurlu fəaliyyət həyata keçirir. Əminik ki, bunun nəticəsində xalqımız daim əmin-amanlıq şəraitində yaşayacaq".

Çıxışlardan sonra fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərinə mükafatlar təqdim edilib.

Tədbirdə, həmçinin müxtəlif KİV-lərin təmsilçilərinə və dövlət qurumlarının mətbuat xidmətlərinin rəhbərlərinə "Bakcell" şirkətinin, eləcə də ölkəmizdə mətbuatın inkişafında və Azərbaycanın təbliğində xidmətlərinə görə bir qrup şəxsə "PaşaBank"ın adından hədiyyələr təqdim olunub.

Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov Azərbaycan mətbuatına göstərdiyi yüksək diqqət və qayğıya, jurnalistlərin fəaliyyətinə verilən qiymətə görə Prezident İlham Əliyevə KİV nümayəndələri adından minnətdarlığını bildirib.

Mərasim konsert proqramı ilə davam edib.

Azərbaycan Rusiyanın ən böyük satış şəbəkəsi ilə danışıqlara başlayıb

Xarici ölkələrdə fəaliyyət göstərən mağazalarda və Duty Free mağazalarında "Made in Azerbaijan" brendinin təşviqi istiqamətində tədbirlər davam etdirilir.

İqtisadiyyat Nazirliyindən daxil olmuş məlumata görə, bu çərçivədə Rusiyanın ən böyük pərakəndə satış şəbəkəsi ilə danışıqlara başlanmışdır. Bununla yanaşı, Moskva, Kiyev, Minsk, İstanbul, Frankfurt və digər şəhərlərin hava limanlarındakı Duty Free mağazalarında məhsulların yerləşdirilməsi ilə bağlı müzakirələr aparılır.

SOCAR-ın xarici ölkələrdəki yanacaq doldurma məntəqələrində Azərbaycan mənşəli məhsulların satışının təşkil edilməsi məqsədilə "Made in Azerbaijan" rəflərinin yerləşdirilməsi ilə bağlı işlər görülür.

"Made in Azerbaijan" brendinin AZAL şirkəti vasitəsi ilə təşviq edilməsi ilə bağlı işlər davam etdirilir.

E L A N

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə "Azərbaycan İqtisadçılar İttifaqı" İctimai Birliyi "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə "İnsan kapitalının inkişaf etdirilməsi" strateji hədəfinin təşviqi tədbirləri" adlı layihənin icrasına başlamışdır. Layihə çərçivəsində "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə "İnsan kapitalının inkişaf etdirilməsi" strateji hədəfinin təşviqi məqsədi ilə təhsil müəssisələrində dəyirmi masalar keçiriləcəkdir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500